DÜŞÜNƏN İNSAN
№ 31 - Aprel 2014 - 2 AZN

# Avropanın böyük ehtiyacı: DƏRİN MƏNƏVİYYAT



ISSN 2311-6811
9 772311 681001 31

- Quranın geoloji möcüzələri
- Fosillər təkamülü təkzib edir
- Bitki rənglərindəki sənət
- Allah'a təvəkkül etmək və təslim olmaq
- Qılınc balığındakı hikmətli yaradılış nümunələri
- İslam və keyfiyyət
- Texnologiyaya ilham mənbəyi olan dəniz canlıları
- Təkamül sehrbazlığı

# DÜŞÜNƏN İNSAN

| | |
|---|---|
| Elmi-texnoloji xəbərlər | 4 |
| İslam dünyasında keçən ay | 6 |
| Müsəlmanlar bütün dünyadakı müsəlmanlara görə məsuliyyət daşıyırlar | 8 |
| Bir ayə, bir açıqlama | 15 |
| Quranın geoloji möcüzələri | 16 |
| Allah'a təvəkkül etmək və təslim olmaq | 22 |
| Bitki rənglərindəki sənət | 28 |
| Qılınc balığındakı hikmətli yaradılış nümunələri | 34 |
| Fosillər təkamülü təkzib edir | 38 |
| İslam və keyfiyyət | 44 |
| Texnologiyaya ilham mənbəyi olan dəniz canlıları | 48 |
| Avropanın böyük ehtiyacı: dərin mənəviyyyat | 52 |
| Çətinlik zamanı edilən fədakarlıq ilə rahatlıq vaxtında edilənlərin dəyəri Allah qatında eyni olmaya bilər | 56 |
| Təkamül sehrbazlığı: elmi dəlili olmayan nəzəriyyəni elm kimi göstərmək | 60 |

DÜŞÜNƏN İNSAN
Elmi-kütləvi, mənəvi-psixoloji jurnal
Aprel 2014; № 31
Azərbaycan Respublikası Ədliyyə Nazirliyində qeydiyyatdan keçmişdir.
Reyestr № 3418

Təsisçi və redaktor: Ziya Kazımov
Telefon: (077) 381 61 91
E-mail:info@dusuneninsan.az
www.dusuneninsan.az
Ünvan: AZ1000 Abonent qutusu 35, Bakı, Azərbaycan

Çapa imzalanma tarixi: 28.03.2014
Şərq-Qərb mətbəəsində çap edilib.
Tiraj: 300
Qiyməti: 2 manat



(O mərhəmətli) Allah ki, göyləri və yeri yaratdı, göydən su endirib onunla sizin üçün (növbənöv) məhsullardan ruzi yetişdirdi, əmri ilə dənizdə üzmək üçün gəmiləri sizin ixtiyarınıza verdi və çayları sizə ram etdi

(İbrahim surəsi, 32)

*"Əgər inkişaf etmiş ölkələrin təcrübəsinə nəzər salsaq görərik ki, həmin ölkələrin uğurlarının təməlində ideya, fikir, innovasiya, elmi-texniki tərəqqi dayanır. Biz də ölkəmizdə müxtəlif istiqamətlərdə islahatlar apararkən müasirləşməyə üstünlük veririk. Müasir dövlətin qurulması elmin inkişafı olmadan mümkün deyildir".*

**İlham Əliyev**



# Elmi-texnoloji Xəbərlər



## TİBB SAHƏSİNDƏ FANTAZİYA HƏQİQƏT OLDU

Elm adamları xəstə orqanların üçölçülü holoqram görüntülərini əks etdirən texnologiya icad ediblər. Holoqrama istədiyi kimi müdaxilə edən həkim görüntü üzərində cərrahi müalicə sınaqları həyata keçirə bilir.

"Star Wars" və "Iron Man" kimi məşhur Hollivud filmlərində rast gəldiyimiz holoqram texnologiyası artıq ürək xəstəlikləri mütəxəssislərinin köməyinə çatacaq.

2008-ci ildə qurulan İsrail mərkəzli "Real View Imaging" şirkətinin icad etdiyi sistem sayəsində cərrah xəstəsinin havadakı holoqrafik ürək görüntüsünün ölçüsünü əli ilə böyüdə, orqanı çevirə, kəsə və ya daşıyıb xəstəsinə göstərə bilir.

Texnologiyanın icadında rolu olan həkimlərdən Elçanan Brukhaymer (Elchanan Bruckheimer): "Orqanın holoqram görüntüsünə istədiyim qədər toxuna bilirəm. Bölürəm, üzərinə işarələr qoyuram, nüsxələyib yapışdırıram, böyüdüb-kiçildirəm, hərəkət etdirirəm və anatomiyasını anlamaq üçün hər istiqamətdə 360 dərəcə çevirə bilirəm", - deyir.

Sistemin səhiyyə sahəsində böyük kəşf olduğunu deyən Brukhaymer: "Orqanı təhlil edən kompyuter məlumatlarından faydalanırıq. Normal şəkildə kompyuter ekranı görüntüsü əmələ gətirən məlumatları götürürük və onu üçölçülü fəzada asılı duran orqana çeviririk. "Iron Man" filmindəki kimi. Ancaq bu fantaziya deyil, həqiqətdir", - deyib.

Sistemin xəstəxanalarda istifadəsi üçün sınaqların keçiriləcəyini deyən "Real View Imaging" mütəxəssisləri indiyədək 8 əməliyyatda istifadə edilmiş texnologiyanın xüsusən ürək cərrahlarının işini asanlaşdıracağını bildirirlər.



## BÖYÜK PARTLAYIŞIN SƏSİ KƏŞF OLUNUB

ABŞ-dan elm adamları kainatın əmələ gəlməsinə dair Big Bang (böyük partlayış) nəzəriyyəsini təsdiqləyən qeyri-adi dəlil tapdıqlarını açıqlayıblar.

Tədqiqatçılar 14 milyard il əvvəl hər şeyin əmələ gəlməsindən sonra saniyələr ərzində kosmosun sürətlə genişlənməsi ilə fəzaya buraxılan siqnalı tapdıqlarına inanırlar. Kainatın mənşəyi ilə bağlı bu böyük kəşf kainatın saniyənin trilyonda birindən də qısa müddət əvvəlki formasına işıq tutur.

"BICEP2" adlı layihə üzərində işləyən Harvard-Smitsonian Astrofizika Mərkəzindən olan mütəxəssislər qravitasiya dalğalarını cənub qütbündə teleskop vasitəsilə kəşf ediblər.

Qravitasiya dalğaları Albert Eynşteynin ümumi nisbilik nəzəriyyəsi çərçivəsində kainatın necə əmələ gəlməsinə dair mühüm boşluğu doldurur. Zaman və məkan içində yol alan dairəvi hərəkətlərin böyük partlayışın ilk sarsıntıları olduğu düşünülür. Dalğaların müəyyən edilməsi kvant mexanikası ilə ümumi nisbilik nəzəriyyəsi arasında inteqral əlaqə əmələ gətirir.

Tədqiqatı aparan qrupun rəhbəri Con Kovaç (John Kovac): "Bu siqnalın müəyyən olunması kosmologiyanın ən əsas məqsədlərindən biri idi", - deyir.




Tədqiqat çərçivəsində teleskop qalaktikadan kənarda çox az ekstra qalaktik materialın yerləşdiyi bölgə hədəfə alınıb. Arxa plandakı kosmik mikrodalğanın müşahidə edilməsi ilə kiçik dalğalanmalar kainatın başlanğıc mərhələsi ilə bağlı ipucu verib.

Böyük partlayışdan 380 min il sonra kainatda hərəkət edən qravitasiya dalğaları teleskopla kəşf olunub. Böyük partlayışdan dərhal sonra kainat isti zərrəciklər şəklində idi. Zərrəciklərin atomlarının daha sonra ulduzları və qalaktikaları əmələ gətirmək üçün soyuması 380 min il çəkib.

# İslam Dünyasında

## İSVEÇRƏ UNİVERSİTETİNDƏ "İSLAM VƏ CƏMİYYƏT" TƏDQİQAT MƏRKƏZİ AÇILIR

Friburq Universiteti İsveçrə İslam və Cəmiyyət Tədqiqat Mərkəzi (Schweizerisches Zentrum für İslam und Zentrum) açmaq qərarı alıb. Rektor professor Quido Verqauvenin (Guido Vergauwen) verdiyi məlumata görə, 2015-ci ilin ikinci rübündən ali məktəb səviyyəsində İslam teologiya dərsləri başlayacaq. Bu barədə CİHAN xəbər agentliyi məlumat verib.

İsveçrə Rektorlar Birliyi (CRUS) rəhbəri Professor Antonio Loprieno "müsəlman sivil cəmiyyət qurumları İslam və Cəmiyyət mərkəzi ilə əlaqəyə keçərək həyata keçirilən layihənin məzmununu universitetlə birlikdə formalaşdırmalıdır" deyərək İsveçrədə yaşayan müsəlmanları kömək etməyə çağırdı. Yaydan sonra açılması planlaşdırılan mərkəz teologiya fakültəsinin nəzdində fəaliyyət göstərəcək.

İslam və Cəmiyyət Mərkəzi layihəsi üzrə məsul şəxs doktor Hansyorq Şmidt (Hansjörg Schmid) "İslam dini İsveçrə cəmiyyətinin bir hissəsinə çevrilib. İctimai məsələlər elmi kriteriyalar daxilində İslami cəhətdən araşdırılmalıdır" deyir.

Almaniyada Erlangen Universitetində tədqiqat aparan professor Harri Harun Behr "İslam dini bir olan Allah`a, Qurana, axirət gününə və mələklərə imanı, ətrafdakı insanlara xidmət etmək kimi əxlaqi dəyərləri, namaz və zəkat kimi ibadətləri, saziş imzalayan tərəflərin saziş şərtlərinə əməl etməli olduğunu, ətrafdakı insanları sevmək və onlara şəfqət bəsləmək kimi mühüm mövzuları əhatə edir. Bu dini teoloji cəhətdən ifadə etməyi sevmirəm. Teologiya termini İslam dinini ifadə etmək üçün kifayət etmir. İslam dininin tədqiq olunması sadəcə müsəlman cəmiyyətinə deyil, bütün cəmiyyətə xidmətdir" deyə fikirlərini ifadə edib.

## BMT: Azərbaycanda din-dövlət münasibətləri dünya ölkələri üçün örnək ola bilər

BMT-nin Nyu Yorkdakı mənzil-qərargahında dünyada tolerantlığa həsr edilmiş «Dünyada dinlərarası harmoniya: Sülh və inkişaf üçün zərurət» mövzusunda konfrans keçirilib.

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin mətbuat xidmətindən Trend-ə verilən məlumata görə, BMT tərəfindən hər il qeyd edilən Ümumdünya Dinlərarası Harmoniya Həftəsi çərçivəsində keçirilən bu konfransda dünyada dinlərarası tolerantlıq sahəsində model dövlətlərdən biri olan Azərbaycanın da mədəniyyətlərarası dialoqun və dini tolerantlığın güclənməsinə yönəlmiş töhfələri xüsusilə qeyd olunub.

BMT-nin Sivilizasiyalar Alyansı üzrə ali nümayəndəsi Nassir Abdulazizi Əl-Nasser konfransda çıxışı zamanı deyib ki, Azərbaycan hökuməti tərəfindən yerli və beynəlxalq səviyyələrdə dini tolerantlığın və dialoqun təşviq edilməsinə yönəlmiş tədbirlər regionun və dünyanın bir çox ölkələri üçün örnək ola bilər. Bu istiqamətdə Azərbaycanla əlaqələrə toxunan Əl-Nassir bildirib: «Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi ilə BMT-nin Sivilizasiyalar Alyansı arasında sıx tərəfdaşlıq münasibətləri formalaşıb. DQİDK tərəfindən yaradılmış Milli Tolerantlıq Mərkəzi Azərbaycandakı müsəlman, pravoslav, katolik, xristian, yəhudi və protestant dini icmalarının nümayəndələri, həmçinin dini liderlər arasında birbaşa dialoqun təşviqi və dinlərarası tolerantlıq üzrə təlim və seminarların keçirilməsi üçün nəzərdə tutulub. BMT-nin Sivilizasiyalar Alyansının nümayəndələri tezliklə Mərkəzi ziyarət etməyi planlaşdırırlar».

# Keçən Ay



## İSLAM DÜŞMƏNİ İDİ, İNDİ MƏCLİSDƏ QURAN PAYLAYIR

Hollandiyada bir müddət əvvəl başlamış, bütün ölkəni əhatə edən holland dilində pulsuz Qurani-kərim paylama kampaniyası böyüyərək davam edir.

Kampaniya çərçivəsində Haaqa Bələdiyyə Məclisinin bütün üzvlərinə Qurani-kərim hədiyyə edilib.

Bir vaxtlar İslam əleyhinə çəkilmiş böyük qalmaqalla nəticələnmiş «Fitnə» (Fitna) filminin prodüseri olmuş, İslam dininə nifrəti aşılayan Hollandiyanın qatı sağçı Azadlıq Partiyasından (PVV) ayrılaraq İslamı seçən Arnod van Dorn (Arnoud van Doorn) payladığı Qurani-kərimlərdən birini də Haaqa Bələdiyyə başçısı Cozias van Artsenə (Jozias van Aartsen) verilib.

Məclis toplantısından əvvəl PVV partiyasının işçiləri də daxil olmaqla, bütün məclis üzvlərinə Qurani-kərim paylayan Van Dorn AA müxbirinə bu fəaliyyəti insanların İslamı və müsəlmanları daha yaxşı tanımaları üçün etdiyini deyib.

Bələdiyyə başçısı da daxil olmaqla, hər kəsin müsbət reaksiya verdiyini qeyd edən Van Dorn İslama qarşı mənfi münasibətləri aradan qaldırmaq məqsədi güddüyünü bildirib.

Xalqın İslam dini haqqında məlumatının məhdud olduğunu vurğulayan Van Dorn: "Bələdiyyə məclisində belə bəzən məlumat əskikliyinə şahid oluruq. Bu mövzularda məhdud biliyimizlə danışırıq. Holland dilində Qurani-kərim paylayaraq bir növ İslam haqqında məlumat çatışmazlığını aradan qaldırmaq, boşluğu doldurmaq istədik. Ümid edirəm ki, hədəfimizə nail olarıq", -deyib.

Sonradan İslam dinini seçənlərin qurduğu "Müsəlmanlığı kəşf et" adlı dərnəyin rəhbəri Yakob van der Blomun (Jacop van der Blom) təqribən bir ay əvvəl başladığı kampaniya çərçivəsində daha əvvəl Hollandiya kral və kraliçasına Quran göndərilmişdi.

Müsəlmanlar bütün ölkədə böyük maraq doğuran kampaniya sayəsində il ərzində 100 min ədəd Quran paylamağı hədəfə alıblar.

## Rus həbsxanalarında İslam tədris ediləcək

Rusiya həbsxanalarında dustaqlar ilkin İslam biliklərinə yiyələnə biləcəklər. ANS PRESS-in məlumatına görə, bu barədə Mordoviya Respublikasının mərkəzi müsəlman ruhani idarəsinin başçısı Faqim Şəfiyeva bildirib.

«Yaxın zamanlarda biz dustaqlar üçün qiyabi şəkildə ilkin müsəlman təhsili üzrə layihə işə salacağıq. Bu layihə dini mərkəzlərlə Federal Cəzaların İcrası Xidmətinin əməkdaşlığının davamıdır», - deyə Şəfiyev bildirib.

Bundan başqa, Mordoviya müftisinin sözlərinə görə, dustaqların bir qismi radikal İslam cərəyanlarının tərəfdarıdır və onların dini maarifləndirilməsinə ehtiyac var. «Din insanları zalımlaşdırmalı deyil, inkişaf etdirməli, doğru yol tapmaqda yardımçı olmalıdır», - deyə ilahiyyatçı bildirib.



Düşünən İnsan, Aprel 2014







# MÜSƏLMANLAR BÜTÜN DÜNYADAKI MÜSƏLMANLARA GÖRƏ MƏSULİYYƏT DAŞIYIRLAR

***"Möminlər, həqiqətən də qardaşdırlar. Elə isə qardaşlarınızı barışdırın və Allah`dan qorxun ki, sizə rəhm edilsin." (Hucurat surəsi, 10)*** ayəsində bildirildiyi kimi, müsəlmanlar imanla bir-birlərinə bağlanmış qardaşlardır. Odur ki, dünyanın müxtəlif bölgələrində yaşasalar da, fərqli dillərdə danışsalar da, milliyyətləri və irqləri fərqli olsa da, bir-birlərinin sadiq dostları və köməkçiləridirlər. Müsəlmanların qardaşlığı bir-birləri üçün hər cür fədakarlığı və xeyirxahlığı tələb edir. Bu qardaşlığın tələbi olaraq inananlar Allah yolunda çətinlik və sıxıntıya məruz qaldıqda digər müsəlmanların onlara tərəddüdsüz kömək edəcəklərinə əmin olmalıdırlar. Xeyirxahlıq və ehtiyac içində olan qardaşlarına dəstək olmaq bütün müslmanların məsuliyyətidir. Aralarındakı həmrəyliyə görə Allah möminləri "bir-birlərinin dostu" adlandırır.

Allah`ın əmrinə uyğun olaraq bütün müsəlmanlar qardaşlarının rahatlığı və xoşbəxtliyini səmimi istəməlidirlər. Əlbəttə, bu xidmət zamanı müxtəlif çətinliklərlə qarşılaşacaqlar. Ancaq müsəlmanların bir-birlərinə bağlılıqları və aralarındakı həmrəylik birlikdə bu çətinliklərin öhdəsindən gəlmələrinə səbəb olar.

Bildiyimiz kimi, son günlərdə İslam dünyasında böyük hadisələr baş verir: çevrilişlər olur, daxili qarşıdurmalar baş verir, qısası, müsəlmanlara edilən zülm artaraq davam edir. İstər dünya mediası, istərsə ölkəmizdəki qəzet, televiziya və sosial media xəbərlərinə baxdıqda hər kəsin pərdə arxasında bir səbəbkar axtardığını görürük. İslam coğrafiyasının dünyaya yayılmış "islamofobiya"dan qaynaqlanan bəzi haqsızlıqlara məruz qaldığı inkaredilməz faktdır. Lakin İslam dünyasını təşkil edən ölkələrin bu qarışıqlıqlarda heç payı yoxdurmu?

Şikayətlənmək, daima əzildiyini dilə gətirmək, etiraz etmək, daima təqsiri başqalarının boynuna qoymaq İslam aləminə nə qazandıracaq?

Müsəlmanlar bütün müsəlmanlardan məsul olduqlarını düşünüb birlik şüuru ilə hərəkət etməyin əhəmiyyətini nə vaxt qavrayacaqlar?

## Zülm çəkən müsəlmanları qorumaq hər müsəlmanın vəzifəsidir

Fələstində, İndoneziyada, Şərqi Türküstanda, Patanidə, Misirdə, Suriyada və dünyanın hər hansı başqa yerində müsəlmanlar zülm çəkirlər. Hələ də müsəlman ölkələrin çoxunda müharibələr və daxili qarışıqlıq davam edir. Bu müharibələrdə yüz minlərlə silahsız insan həyatını itirir, qadınlar təcavüzə və işgəncəyə məruz qalır, milyonlarla müsəlman evlərindən, yurdlarından çıxarılır, şikəst olur, yaxınlarını itirirlər. Məsum uşaqlar da güllələrə hədəf olur, körpələr qundaqlarında qətlə yetirilir, qaçmağa çalışan insanlar minalara basaraq şikəst qalırlar. İnsanlara vəhşicəsinə zülm edilir. Hətta Misirdə müsəlmanlar namaz qılarkən belə zalımlıqla şəhid edilirlər. Müsəlmanların yaşadığı bir çox ölkədə qadınlar, uşaqlar zülmə məruz qalır, əziyyət çəkirlər. Müsəlman xalqlar bir-bir müstəqilliklərini itirir, onlara kömək əli uzadacaq vicdanlı insanların yardımı-

Düşünən İnsan, Aprel 2014

nı gözləyir, ancaq səslərini eşitdirə bilmirlər.

Əziyyət çəkən, şəhid edilən müsəlmanlardan hər kəs xəbərdardır. Çünki demək olar ki, hər gün qəzetlərdə, televiziyada bu çarəsiz, yazıq, kimsəsiz, möhtac insanların görüntülərinə rast gəlmək mümkündür. Çoxları bu insanların vəziyyətini görüb yazığı gəlir. Ancaq bir müddət sonra söhbət mövzusunu və ya baxdığı kanalı dəyişdirdikdə, oxuduğu qəzetin səhifələrini çevirdikdə bu insanların varlığını unudur. Bu insanları həmin vəziyyətdən xilas etmək üçün cəhd etməyi, müsəlmanların bir-birindən məsul olduqlarını heç düşünmür. "Dünyada o qədər zəngin, güclü ölkə və prezidentlər var ikən o insanları xilas etmək mənə qalıb?" kimi yanlış düşüncələrlə məsuliyyəti başqalarının üzərinə atır.

Bu insanlar "evimdə problem yoxdur, işimdə problem yoxdur, ticarətim yaxşı gedir, uşaqlarımın təhsilində problem yoxdur" deyib bir kənara çəkilirlər. Halbuki, bu hərəkət ancaq dünyaya ehtirasla bağlanan, müvəqqəti, çox qısa ömründə dünyəvi mənfəətlərin ardınca qaçan insanlara xasdır. Müsəlman səssiz qalaraq mane olmadığı bu zülmün bir gün böyüyərək özünə də böyük zərər verəcəyini unutmamalıdır. Özünə zərəri toxunmayan zorakılığa səssiz qalmaq böyük vicdansızlıqdır. Xüsusilə də əhəmiyyətsiz məsələlərdə özünü qabağa atıb lovğalananların bu mühüm hadisə ilə qarşılaşdıqda məsuliyyəti başqalarının boynuna atması ciddi əxlaqi pozuntudur. Allah rizası üçün cəhd etmək əvəzinə zülm çəkən müsəlmanları köməksiz qoymaq, "o ölkədən bizə nə, biz öz ölkəmizin dərdini çəkək" məntiqi ilə hərəkət etmək, bir küncdən hadisələrin səngiməsini seyr etmək səmimi müsəlmanlıq deyil.

Zülm çəkən müsəlmanları xilas etmək üçün hər vicdanlı müsəlman bu məsuliyyəti şəxsən üzərinə götürməlidir. Bütün müsəlmanların üzərinə düşən bu məsuliyyətə uca Allah belə diqqət çəkmişdir:

***Sizə nə olub ki, Allah yolunda: "Ey Rəbbimiz, bizi əhalisi zalım olan bu şəhərdən kənara çıxart, bizə öz tərəfindən mühafizəçi göndər, yardımçı yolla!" – deyə dua edən aciz kişilər, qadınlar və uşaqlar uğrunda cəhd etmirsiniz? (Nisa surəsi, 75)***

## Məsuliyyət daşıyan müsəlmanlar İslam dünyasındakı problemlər haqqında səmimi düşünməlidirlər

Müsəlmanlar bu problemlər haqqında səmimi düşünməlidirlər.

"İslam dünyası" kimi harada səhvə yol vermişik? Bundan sonra nə etməliyik?

Etdiyimiz səhvləri necə düzəldə bilərik? Nə cür və hansı istiqamətdə konkret addımlar ata bilərik?

İslam dünyasının həm iqtisadi, həm siyasi, həm də sosial cəhətdən dirçəlməsi üçün son nəticəyə aparan ən qəti həll yolları hansılardır?

Qərb ölkələrini narahat edən məsələlər sadəcə ön mühakimədirmi? Onların da haqlı olduğu cəhətlər varmı?

Bəzi insanların məlumatsızlığından, bəzilərinin isə qeyri-səmimiliyindən qaynaqlanan xurafatçı sistemin İslamın bu arzuolunmaz imicində rolu varmı?

Peyğəmbərimizin (s.ə.v) dövründəki kimi, hər kəsin razı qaldığı sevgi və sülh dolu İslam anlayışını mənimsəmişikmi?

Allah`ın Quranda müsəlmanların birlik olmasını bildirməsinə, parçalandıqda mənəvi güclərini itirəcəklərini, əzilib məğlub olacaqlarını xəbər verməsinə baxmayaraq müsəlmanların dağınıq olması əsl səhvin özlərində olmasını göstərmirmi?

## Müsəlmanlar zülmə qarşı Allah`ın və Rəsulullahın (s.ə.v) yoluna tabe olmaqla məsuldurlar

Müsəlmanlara edilən zülmə qarşı çəkingən və ya zorakılığa meyilli həll yolları təqdim edənlər bilməlidirlər ki, onların hadisələrə laqeyd yanaşması müsəlmanlara qarşı zülmü daha da artırır. Çünki dünyanın hər hansı yerində çarəsiz, məsum müsəlmanlar heç bir səbəb olmadan qətlə yetirilərkən digər müsəlmanların baş verənləri səssizcə seyr etməsi pislərə və zalımlara dəstək olmaq deməkdir. Məhz öz rahatlıqları pozulmasın deyə zülmə laqeyd yanaşanlar, əlbəttə, axirətdə zülmə və haqsızlığa səbir edənlərlə birlikdə olmağı ümid edə bilməzlər.

Müsəlman ölkələrdə baş verən hadisələr haqqında bəzi müsəlman qardaşlarımızın fərqli düşüncələri var. Bəzi qardaşlarımız zorakılığa zorakılıqla cavab verməyin tərəfdarıdırlar. Xalqın və dövlətin qüvvələrinin qarşı-qarşıya gəlməsinin, bir-birlərinə bıçaq, balta və odlu silah tətbiq etmələrinin zülmə çarə olduğunu düşünənlər bilməlidirlər ki, bu düşüncə ilə zülmə əsla mane ola bilməzlər. Zülmə küçə qarşıdurmaları, soyğunlar, təcavüzkarlıq və zorakılıqla son qoymaq olmaz. Zorakılıq metodları ilə meydana gələn dəyişiklik əsla insanların həsrətini çəkdiyi əmin-amanlığı, sülhü və təhlükəsizliyi bərqərar etməz.

Bəzi qardaşlarımız isə yaxşı niyyətlərlə humanitar yardım, atəşkəs, koridor, qaçqın düşərgələri kimi süni həll yolları təklif edərək müsəlmanlara qarşı







Düşünən İnsan, Aprel 2014







# Sizə nə olub ki, Allah yolunda: "Ey Rəbbimiz, bizi əhalisi zalım olan bu şəhərdən kənara çıxart, bizə öz tərəfindən mühafizəçi göndər, yardımçı yolla!" – deyə dua edən aciz kişilər, qadınlar və uşaqlar uğrunda cəhd etmirsiniz? (Nisa surəsi, 75)

zülmə son qoyulacağını düşünürlər. Əlbəttə, humanitar yardımlarla bəzi uğur və irəliləyişlər əldə oluna bilər. Ancaq bunlar daimi və tam qaneedici həll yolu deyil. Humanitar yardımlar, gücsüz, zəif insanların hər cür ehtiyacının təmin olunması Allah`ın Quranda əmr etdiyi gözəl əxlaqi xüsusiyyətdir. Ancaq təkcə bu yolla insanların problemləri həll oluna bilməz. Çünki bu yardımların kim tərəfindən, necə paylanacağı, yəni millətin mənfəətinin nəzərə alınıb-alınmayacağı da məsələnin başqa tərəfidir.

Digər tərəfdən, insanların həyat şəraitinin yaxşılaşdırılması üçün ölkədə intizamın və sabitliyin mövcud olması çox vacibdir. Bu sabitlik iqtisadiyyatdan sosial həyata qədər hər sahədə hakim olmalıdır. Müsəlman ölkələrin bir qismində bu cəhətdən tam qarışıqlıq hökm sürür. Elə isə humanitar yardımların məsələni həll etməsi, bu yardımların kiçik, təsirinin böyük nəticələr doğuracağının gözlənməsi böyük xətadır. Çünki Allah bu sahədə bütün insanlar üçün yeganə həll yolunu bildirmiş və birləşməyi əmr etmişdir:

> ***Şübhəsiz ki, Allah Öz yolunda möhkəm divar kimi səf çəkib döyüşənləri sevər! (Saff surəsi, 4)***

Unutmaq olmaz ki, əsl həll yolu ancaq Allah`ın və Rəsulullahın (s.ə.v) göstərdiyi yola tabe olmaqdır.

İslam birliyini təcili təsis etmək əvəzinə bu birliyin qurulmasını öz ağıllarına görə qeyri-mümkün hesab edənlər, bunun üçün cəhd göstərməyənlər, bu yolda edilən fəaliyyətləri dəstəkləməyənlər çox böyük məsuliyyət altına girirlər. Zülmə izin vermək də zülmdür. Bu böyük coğrafiyada axan hər damla qandan, dağıdılan hər evdən, şəhid olan hər məsumdan, yaralanıb şikəst qalan hər məzlumdan, aclıq və yoxsulluq içində yaşayan hər insandan İslam birliyi üçün cəhd etməyən hər müsəlman məsuldur. Türk-İslam Birliyinin qurulması Allah`ın Quranda göstərdiyi, Peyğəmbərimizin (s.ə.v) hədislərində ətraflı izah etdiyi yeganə həll yoludur. Qurana əsasən birləşmək fərz, parçalanmaq haramdır.

## Müsəlman ölkələrdə sülh və əmin-amanlığın bərqərar olması üçün yeganə həll yolu Türk İslam Birliyidir

Müsəlmanların birləşməsi ən əsas və ağıllı hərəkətdir. İslam dünyası daima idarə olunan, daxili işlərinə qarışılan, çevrilişlər edilən, iqtisadi cəhətdən xarici ölkələrdən asılı, siyasi cəhətdən qlobal qüvvələrin sözünü dinləmək məcburiyyətində olan sistemdən xilas olmaq istəyirsə, dərhal birləşməlidir. Məsuliyyətli müsəlman "İslamın dünyaya sürətlə yayılmasından narahat olan, Quranı Müsəlmanların əlindən almalıyıq deyən, İslamın yüksələn ulduzunu söndürməyə çalışan qaranlıq qüvvələrin xain planlarına təslim olmaq istəmirik" deyə düşünürsə, bunun yolu Türk İslam Birliyini müdafiə etməkdir. İnkarçılar öz mənfəətləri üçün, eyni düşüncə və fəlsəfi ideologiyanın tərəfdarları olmayanlarla belə ittifaq qurub pislik, fitnə-fəsad törətmək üçün birləşirlər. Əgər İslam aləmi öz arasında ittifaq qurmasa, Allah yer üzündə böyük fitnə-fəsad olacağını bildirir:

> ***Kafirlər də bir-birinə dostdurlar. Əgər siz bunu etməsəniz (bir-birinizə yardımçı olmasanız), yer üzündə fitnə və böyük bir fəsad baş verər. (Ənfal surəsi, 73)***

İslam dünyası məzhəb və irqi ayrı-seçkilik qarşıdurmalarına izin verməyərək ortaq məxrəcdə birləşib İttihadi-İslamın sürətlə qurulmasını həyata keçirməlidir. Bu birlik İslamın bütün bölgəyə yayılmasına, problemlərin həllinə səbəb olacaq, başqa ölkələrin müsəlmanların daxili işlərinə qarışmasına mane olacaq, təriqətlərarası qarşıdurmaların, daxili qarışıqlıqların və anarxiyanın qarşısını alacaq. Bütün İslam aləmi unutmamalıdır ki, ancaq bir mərkəzdə birləşərək birlik ola bilər. Beləcə, İslam coğrafiyasının hər cür hüquqları qorunar, ayrı-seçkilik, haqsızlıq, zülm sona çatar, siyasi, sosial və iqtisadi qüvvə əmələ gələr.





Bu zamanda hər insan öz başının çarəsinə baxmalı deyil, hər müsəlman digəri üçün ciddi çalışmalıdır. Bir çox müsəlman peyğəmbər qissələrini, səhabələrin həyatlarını oxuyub təqdir edir, onların üstün əxlaqını tərifləyir, cəsarətlərini, mərd, qınayanın qınamasından qorxmayan, əsla ümidsizliyə düşməyən, geri çəkilməyən, hər cür çətinliyə sinə gərən əxlaqından bəhs edir. Bu mübarək insanlar Allah`ın sevdiyi, cənnətlə müjdələdiyi çox dəyərli, fədakar insanlardır. Onlar həyatları boyu saleh əməllər ediblər və dürüst olublar. Ancaq bu gün müsəlmanların üzərinə düşən məsuliyyət sadəcə onların həyatından bəhs etmək deyil, onlardan nümunə götürmək və hər an onlar kimi davranmaqdır. Hər vicdanlı müsəlman İttihadi-İslam üçün cəhd etməklə məsuldur. Bu, sadəcə müsəlman ölkələrin xalqları üçün deyil, bütün insanların rahatlıq, sülh və əmin-amanlıq içində yaşaması üçün yeganə həll yoludur. Allah adətullahına uyğun olaraq mütləq İttihadi-İslamı meydana gətirəcək. Lakin daha çox zülm baş vermədən, vaxt itirmədən bu fərz vəzifənin həyata keçirilməsi üçün çalışmaq əsasdır.

Müsəlmanların "Ya Allah, Bismillah" deyib, şeytandan Allah`a sığınıb birləşməsi uca Allah`ın fərz etdiyi vəzifənin başlanğıcı kimi sevinc mənbəyi olar. Rəbbimiz bütün müsəlmanların qardaş olduğuna və birləşməsinə ayələrdə belə diqqət çəkir:

***Həqiqətən, bu, vahid bir din olaraq sizin (hamınızın) dininizdir. Mən də sizin Rəbbinizəm. Elə isə Mənə ibadət edin! Amma öz aralarında firqələrə bölünüb parçalandılar. Onların hamısı Bizim hüzurumuza qayıdacaqlar. (Ənbiya surəsi, 92-93)***

***Hamılıqla Allah`ın ipinə möhkəm sarılın və ayrılmayın! Allah`ın sizə verdiyi nemətini xatırlayın ki, siz bir-birinizə düşmən ikən O sizin qəlblərinizi birləşdirdi və Onun neməti sayəsində bir-birinizlə qardaş oldunuz. Siz oddan olan bir uçurumun kənarında ikən O sizi oradan xilas etdi. Allah Öz ayələrini sizin üçün bu şəkildə aydınlaşdırır ki, haqq yola yönəlmiş olasınız! (Ali-İmran surəsi, 103)***

Ələvi, sünni, şiə, vəhabi, cəfəri və digər məzhəblərə mənsub olan bütün müsəlmanlar din qardaşı olduqlarını dərk etməli, işgəncəyə məruz qalan, yurdlarından sürgün edilən, öldürülən, şikəst edilən müsəlmanların yalvarışlarına qulaq verməli, bu günə qədər onsuz da xeyli vaxt itirdiklərini qavrayıb daha çox vaxt itirmədən dərhal hərəkətə keçməlidirlər. Unutmaq olmaz ki, birləşmək və parçalanmamaq Allah`ın hamımıza fərz etdiyi hökmdür. Allah`ın bu hökmünü təcili yerinə yetirmək Allah`ın rizasına ən uyğun əməldir.

# Bir ayə, bir açıqlama

## BİR AYƏ, BİR AÇIQLAMA: "YUSİF" SURƏSİ, 87

***Allah`ın mərhəmətindən ümidinizi kəsməyin. Allah`ın mərhəmətindən yalnız kafirlər ümidini üzər!* (Yusif surəsi, 87)**

Ümidvar olmaq Quran əxlaqının bir tələbidir. Namaz qılmaq, oruc tutmaq kimi Allah`a ümid bəsləmək də müsəlman üçün fərzdir. Ayədə də möminlərin Allah`ın rəhmətindən ümidlərini üzməmələri, Rəbbimizin ümidsizliyə düşməyi haram etdiyi, ümidsizliyin kafirlərə xas xüsusiyyət olduğu bildirilir. Qurana əsasən ümidvar olmaq şərtlərdən asılı olmayaraq, kədərlənib narahat olmadan hər hadisənin ən xeyirli şəkildə nəticələnəcəyinə inanıb Allah`a təvəkkül etməkdir. Dünya bir imtahan yeridir. Bu imtahanda insan ömrü boyu bir çox çətinlik və sıxıntı ilə sınanır. Quranın öyrətdiyi düşüncə tərzindən uzaq yaşayan insanlar başlarına gələn hadisələrdən sarsılır, getdikcə daha bədbin, ümidsiz olurlar. Eyni hadisə və şərtlər qarşısında Allah`a təvəkkül edən bir müsəlman isə başına gələn hər hadisədə mütləq xeyir görür. Hər hadisənin ağıl və mərhəmət sahibi Allah`ın istəyi ilə olduğunu düşünür və Allah`ın mütləq böyük hikmətlə yaratdığını bilir. Allah`ın izni olmadan bir yarpaq belə tərpənməz. Canlı və cansız hər şey Allah`ın nəzarəti altındadır və Onun müəyyən etdiyi qədər çərçivəsində hərəkət edir. Bu həqiqəti dərk edən müsəlman şərtlərdən asılı olmayaraq, sonsuz mərhəmət sahibi olan Rəbbimizə güvənərək rahat olar. Hər halına şükür edər, Allah`dan daima xeyir gözləyər. Əsas hədəfi isə axirətdir. Axirət əbədiyyən qalacağımız əsl yurdumuzdur. Müsəlmanın qəlbi Allah`a qarşı ümidlə doludur. Səhv etdikdə, Allah qorusun, bir günah etdikdə belə ümidvar əhval-ruhiyyəsini itirməz. Dərhal Allah`a səmimi qəlbdən tövbə edərək Allah`dan tövbəsinin qəbul olunmasına ümid bəsləyər. Daha təqvalı, daha gözəl əxlaqlı olmağı, Allah üçün daha çox xidmət etməyi, daha səmimi, sevgi dolu, sağlam, daha gözəl və nurlu olmağı Allah`dan ümid edər. Hər şeydən əvvəl, Rəbbimizin rizasını, rəhmətini və cənnətini böyük bir ümidlə arzu edər.



# QURANIN GEOLOJİ MÖCÜZƏLƏRİ

Quran nazil edildiyi gündən etibarən hər dövrdə yaşayan insanların anlayacağı asan və anlaşıqlı dildədir. Allah Quranın bu üslubunu “And olsun ki, Biz Quranı ibrət almaq üçün belə asanlaşdırdıq...” (Qəmər surəsi, 22) ayəsi ilə xəbər verir. Quranın ədəbi dilinin mükəmməlliyi, içindəki hikmətli, möcüzəvi məlumatlar onun Allah`ın sözü olduğunu qəti sübut edir. Bu möcüzəvi məlumatlardan bəziləri də Rəbbimizin geologiya elmi sahəsində bildirdiyi möcüzələrdir.

Quranın nazil edildiyi 7-ci əsrdə ərəblər elmi mövzular haqqında saysız-hesabsız xurafat və batil inanclara inanırdılar. Məsələn, göy üzünün dağlar sayəsində yuxarıda dayandığını düşünürdülər. Bu inanca görə Yer düz müstəvi idi və hər iki tərəfindəki hündür dağlar dirək kimi göy qübbəsini yuxarıda saxlayırdılar.

Ancaq ərəblərin bütün batil inancları Quranla aradan qaldırıldı. Məsələn, “Gördüyünüz göyləri dirəksiz yüksəldən... Allah`dır” (Rəd surəsi, 2) ayəsi göy haqqında batil inancı əsassız etdi. Bunun kimi bir çox mövzuda o dövrdə heç bir insanın bilmədiyi mühüm məlumatlar Quranda verildi. İnsanların astronomiya, geologiya, fizika və ya biologiya haqqında çox az şey bildikləri dövrdə nazil edilən Quranda kainatın yaradılışından insanın ana bətnində formalaşmasına, atmosferin quruluşundan yer üzündəki müvazinətlərə qədər bir çox mövzuda mühüm məlumatlar var.

İndi Qurandakı geoloji möcüzələrdən bir neçəsinə birlikdə baxaq.

## Yeddi təbəqədən ibarət yer üzü

Allah Quranda yer üzünü yeddi təbəqəli göy üzünə bənzədir:

***Yeddi göyü və yerdən də bir o qədərini yaradan Allah`dır... (Talaq surəsi, 12)***

Quranda əsrlər əvvəl yerin və göyün yeddi təbəqədən ibarət olduğu bildirilib. Əsrlər sonra aparılan uzun geoloji tədqiqatlar da eyni nəticəni ortaya qoyub. Elm adamları yerin təbəqələrini belə sadalayırlar: hidrosfer, litosfer, astenosfer, üst mantiya, alt mantiya, xarici nüvə və daxili nüvə.

Hidrosfer okean və dənizlərin ən üst hissəsi ilə suyun altında olan quru ərazilərin sahilləridir.

Litosfer Yerin ən üst təbəqəsini təşkil edən bərk qaya təbəqəsidir. Digər təbəqələrlə müqayisədə çox na-



zik, soyuq və bərkdir. Bu baxımdan, yer üzündə qabıq funksiyası daşıyır.

Astenosfer litosferin altında yerləşən təbəqədir. Bu təbəqə yüksən temperatur və təzyiqə məruz qaldıqda yumşalıb əriyən, isti, yarı-bərk maddələrdən təşkil olunub. Bərk litosfer təbəqəsinin yavaş hərəkət edən astenosferin üstündə üzdüyü və ya hərəkət etdiyi düşünülür.

Astenosferin altında yüksək temperaturda, yarıbərk süxurlardan ibarət təqribən 2900 km qalınlığında mantiya təbəqəsi yerləşir. Qabıqdan çox dəmir, maqnezium və kalsiumdan ibarət mantiya daha isti və sıxdır. Çünki Yerin içindəki temperatur və təzyiq dərinlik artdıqca artır.

Yerin mərkəzində mantiyadan iki dəfə sıx olan nüvə yerləşir. Bu sıxlığın səbəbi tərkibində süxurlardan çox metallar (ərimiş dəmir-nikel qarışığı) olmasıdır. Yerin nüvəsi iki hissədən ibarətdir: 2200 km qalınlığındakı maye şəklində xarici nüvə və 1250 km qalınlığındakı bərk daxili nüvə. Yer fırlandıqca maye nüvə yerin maqnit sahəsini əmələ gətirir.

XX əsrdəki texnologiya ilə aşkar edilən bu elmi faktların Quranda bildirilməsi Quranın çoxlu sayda möcüzəsindən bir neçəsidir.

Quran hər şeyi yoxdan yaradan və elmi ilə bütün varlıqları ehtiva edən uca Allah`ın sözüdür. Qurandakı hər məlumat bu ilahi kitabın bilinməyən gizli möcüzələrini üzə çıxarır.





İnsan isə Allah`ın nazil etdiyi bu kitabdan möhkəm yapışmalı və onu özünə yol göstərici rəhbər etməlidir. Quranda Rəbbimiz: ***"Bu nazil etdiyimiz mübarək bir kitabdır. Ona tabe olun və Allah`dan qorxun ki, bəlkə, sizə rəhm edilsin!" (Ənam surəsi, 155)*** - buyurur.

## Üzən qitələr

Yer qabığı mantiya təbəqəsinin üstündə sanki üzərək hərəkət edir. İlk dəfə XX əsrin əvvəllərində Alfred Vegener (Alfred Wegener) adlı alman elm adamı yer üzündəki qitələrin Yerin ilk dövrlərində bitişik olduğunu, ancaq sonra fərqli istiqamətlərə doğru hərəkət edərək bir-birlərindən ayrılıb uzaqlaşdığını kəşf edib. Yer üzündəki quru hissələri təqribən 500 milyon il əvvəl bir-birinə bitişik idi və Pangeya adlanan bu böyük quru hissəsi cənub qütbündə yerləşirdi. Təqribən 180 milyon il əvvəl Pangeya iki yerə bölünüb. Müxtəlif istiqamətlərdə hərəkət edən bu iki nəhəng qitənin birindən Afrika, Avstraliya, Antarktida və Hindistan, ikincisindən isə Avropa, Şimali Amerika və Asiyanın Hindistandan başqa hissələri əmələ gəlib.

Tədqiqatlarda qitələrin ildə 1-5 sm hərəkət etdiyi hesablanıb. Təbəqələr bu şəkildə hərəkət etdikcə Yerin coğrafiyasında dəyişikliklər meydana gəlir. Məsələn, Atlantik okeanı hər il bir az böyüyür (Carolyn Sheets, Robert Gardner, Samuel F. Howe, General Science, Allyn and Bacon Inc. Newton, Massachusetts, 1985, səh. 305)

Allah dağların hərəkətini ayədə "sürüklənmə" sözü ilə ifadə edir. Elm adamları da bu hərəkəti ingiliscə "continental drift", yəni "qitələrin dreyfi" termini ilə ifadə edirlər.

***Sən dağlara baxıb onları hərəkətsiz durmuş güman edərsən, halbuki onlar bulud keçdiyi kimi keçib gedərlər... (Nəml surəsi, 88)***

## Yarılan yer üzü

***And olsun qayıdan göyə! And olsun yarılan yerə! (Tariq surəsi, 11-12)***

Yuxarıdakı ayədə işlədilən ərəbcə "sad`a" sözü azərbaycan dilində "çatlamaq, yarılmaq, ayrılmaq" mənalarını verir. Allah`ın yerin yarılmasına and içməsi başqa bir Quran möcüzəsidir.

1945-46-cı illərdə elm adamları mineral mənbələrini araşdırmaq üçün ilk dəfə dəniz və okeanların dibinə eniblər. Tədqiqatlarda diqqət çəkən ən əsas cəhətlərdən biri Yerin çatlaq quruluşu oldu. Yer xarici səthindəki qayalıq təbəqə şimal-cənub və şərq-qərb istiqamətində on minlərlə kilometr uzunluğunda çoxlu sayda çatlarla yarılmışdı.



Yer üzünün çatlaq quruluşu sayəsində müəyyən miqdarda temperatur xaric edilir və ərimiş süxurların böyük hissəsi okeanlardakı təpələri əmələ gətirir. Əgər yer qabığından yüksək miqdarda temperaturun xaric edilməsinə imkan verən çatlaq quruluşu olmasaydı, Yer kürəsində həyat olmazdı. Çünki yer qabığının altından çıxmağa yer tapmayan temperatur böyük ölçüdə mənfi nüvə təsiri meydana gətirərdi.

## Yer üzünün yükünü boşaltması

***Yer titrəyib lərzəyə gəldiyi zaman; yer öz yükünü bayıra atdığı və insan: "Ona nə olub?"– dediyi zaman – həmin gün yer öz əhvalatlarını danışacaqdır. (Zəlzələ surəsi, 1-4)***

Ərəb dilində "zilzal" sözü zəlzələ, təkan, "əskələha" sözü isə "ağır yük" mənasını verir. Yuxarıdakı ayələrin ilkin mənasını düşündükdə zəlzələ ilə bağlı mühüm elmi həqiqətə diqqət çəkildiyini görürük.

"Zəlzələ" surəsinin 2-ci ayəsində zəlzələ ilə bağlı yerin yükünü bayıra atmasından bəhs edilir. Son əsrlərdə aparılan tədqiqatlar nəticəsində yerin mərkəzində ağır metalların olduğu və yer üzündəki təkanlarla bu metalların üzə çıxdığı məlum olub. Geoloqların fikrincə,



yer soyuduqca sıxlığı çox olan ağır maddələr yerin mərkəzinə çöküb, yüngül maddələr isə yuxarı səthə qalxıb. Odur ki, yer qabığı ən yüngül maddələrdən (bazalt və qranit süxurlardan) ibarətdir, nüvədə isə ağır metallar (nikel və dəmir) var. Nəticədə, ərimiş metallardan ibarət yerin daxili təbəqəsi yerin üst təbəqəsindən daha ağır, sıx maddələrdən təşkil olunub.

Zəlzələ olduqda isə yerin altındakı ağır maddələr üzə çıxır, beləcə, ayələrdə bildirildiyi kimi, yer üzü ağır yükünü bayıra atır. Bundan əlavə, metal yataqları ən çox zəlzələ və vulkanların daha çox baş verdiyi bölgələrdə yerləşir. Hərtərəfli tədqiqatlar nəticəsində yaxın keçmişdə üzə çıxan bu elmi faktlar Allah`ın Quranda işarə etdiyi elmi həqiqətlərdən biridir.




## Quran Allah`ın sözüdür

Bütün bu məlumatlar bizə açıq-aydın həqiqəti göstərir: Quran elə bir kitabdır ki, içindəki xəbərlərin hamısı doğru çıxıb və çıxır. Elmi mövzularda, keçmiş və gələcək haqqında verilən xəbərlərdə və ya riyazi şifrlərdə həmin dövrdə heç bir insanın bilmədiyi həqiqətlər ayələrdə xəbər verilib. Bu məlumatların o dövrün bilik səviyyəsi və texnologiyası ilə bilinməsi qeyri-mümkündür. Əlbəttə, bu, Quranın insan sözü olmadığını sübut edir. Allah Quranda bu həqiqəti bizə belə bildirir:

**Məgər onlar Quran barəsində düşünmürlərmi? Əgər o, Allah`dan başqası tərəfindən olsaydı, əlbəttə, onda çoxlu ziddiyyət tapardılar.**

(Nisa surəsi, 82)





# ALLAH`A TƏVƏKKÜL ETMƏK VƏ TƏSLİM OLMAQ

Hər insanın həyatında çatışmazlıq, tərslik kimi görünən hadisələr baş verir. Bunlar insanın bütün həyatına təsir edəcək qədər böyük və ya gündəlik həyatda rast gəlinən kiçik hadisələr ola bilər. Quran əxlaqı ilə yaşamayan insanlar nəfslərinin xoşuna gəlmədiyi bu cür hadisələrlə qarşılaşdıqda sıxıntı keçirir, təşvişə düşür, gərgin olur, qorxurlar. Halbuki, bu, onların çox mühüm bir həqiqətdən xəbərsiz olduqlarına görə öz-özlərinə etdikləri zülmdür. Allah`ın bir ayədə bildirdiyi kimi:

*"...Allah onlara zülm etmədi, lakin onlar özləri özlərinə zülm edirdilər." (Tövbə surəsi, 70)*

Allah`a iman gətirməyən və ya iman gətirdiyi halda, Allah`ın bildirdiyi həqiqətləri qulaqardına vuraraq yaşayan insanların həyatı hələ dünyada ikən narahatlıq, kədər, şübhə, qorxu içində keçir.

Ancaq həqiqəti bilənlər üçün dünya həyatında qorxuya, narahatlığa, bədbəxtliyə səbəb olan heç nə yoxdur. Çünki iman gətirənlər hər hadisəni Allah`ın qədərdə (tale) yaratdığını, hər şeyin Allah qatındakı "Lövhi-məhfuz" adlı kitabda yazıldığını və bütün insanların qədəri sadəcə izlədiyini bilirlər.

Allah`ın yaratdığı hadisələrin özləri üçün həmişə xeyirlə nəticələnəcəyini, uca Allah`ın əməlisaleh qullarının qədərini ən hikmətli, ən xeyirli şəkildə yaratdığını əsla unutmazlar.

## Qədər haqqında yanlış inanclar insanları kədər və sıxıntıya sürükləyir

İnsanların böyük əksəriyyəti qədəri bilirlər, ancaq qədər haqqında yanlış anlayışları var. Məsələn, sadəcə insanın saç rəngi, boyunun uzunluğu, ata-anasının kim olacağı kimi müəyyən şeylərin insanın





qədərində olduğunu düşünür, digər məsələlərdə isə əgər çox çalışıb, səy göstərsələr, qədərlərini dəyişdirə biləcəklərini zənn edirlər. Halbuki, həqiqət budur: bir insanın hər anı, bütün həyatı, həyatı boyu başına gələn və gələcək hər hadisə, hər söhbət, hər baxış, hər səs qədərindədir. Məsələn, hal-hazırda, jurnalın bu sətirlərini oxuyan insanın qədərində bu günün bu saatında bu sətirləri oxumaq mövcuddur. Allah bu anı hələ siz yaradılmadan milyon illər əvvəl də bilir. Bəlkə bu jurnalı oxuyana qədər insanın başına bir çox hadisə gəlib. Məsələn, elə oxumağa başlayacağı an qapının zəngi çalınıb və bir dostu gəlib. Beləliklə, jurnalın oxunması üç saat sonraya qalıb. Əlinə jurnalı aldığı an qapının zənginin çalınması, qapını açdıqda dostunun gülər üzü, salam verməsi, jurnalın oxunmasının üç saat sonraya qalması siz bunları yaşamadan əvvəl Allah`ın hafizəsində, sizin, dostunuzun və bu jurnalın qədərində müəyyən olunmuşdur. Allah bir ayədə bu barədə belə bildirir:

***Sən nə iş görsən, Qurandan nə oxusan, nə iş görsəniz, onlara daldığınız zaman Biz sizə şahid olarıq. Yerdə və göydə zərrə qədər bir şey sənin Rəbbindən gizli qalmaz. Ondan daha böyük, daha kiçik elə bir şey də yoxdur ki, açıq-aydın kitabda olmasın! (Yunis surəsi, 61)***

İnsan zaman və məkandan asılıdır. Bizim üçün keçmiş, indi və gələcək olan Allah qatında bir andan ibarətdir. Məsələn, növbəti ad günümüz bizim üçün gələcəkdir. Əslində isə, həmin an Allah qatında olub bitib, Allah o anı bilir. Yəni bizim növbəti ad günümüzdə nə geyinəcəyimizi, kimlərlə birlikdə olacağımızı, həmin gün nə edəcəyimizi Allah hal-ha-



zırda bilir. İki il sonra, üç il sonra, on il, qırx il sonra nə edəcəyimizi də Allah hal-hazırda ən incə təfərrüatına qədər bilir. Allah bir insanın həyatının bütün günlərini, hətta bütün dəqiqələrini, saniyələrini bir an olaraq bildiyi kimi, kainat mövcud olduğundan bəri yaşamış milyardlarla insanın və bundan sonra yaşayacaq bütün insanların həyatının hər saniyəsinə hakimdir. Allah sonsuz uzun zamanı sonsuz qısa zamanın içində - yəni bir anda yaratmışdır.

İnsanın Allah`ın sonsuz elmini dərk etməsi və öz qədərini izlədiyini bilməsi isə onun üçün böyük nemət və asanlıqdır. Səmimi iman gətirən, Allah`a səmimi təslim olan bir mömin yaradılmış qədərini ibrət alaraq, şövqlə, şükürlə və hər an dərin düşünərək, kreslosunda oturub bir filmə baxan insan kimi rahatlıqla, təslimiyyətlə izləyər.

## Möminlər Allah`dan razıdırlar

Allah`ı dost tutan, Allah`a təvəkkül edən, Allah`ın yaratdığı hər hadisədən, hər görüntü və hər söhbətdən razı qalan insan qədərindən də razıdır. Allah insanları sınamaq üçün qədərlərində müxtəlif hadisələr və görüntülər yarada bilər. Bunlar bəzən qorxu, bəzən çətinlik, sıxıntı kimi görünə bilər. Ancaq bu hadisələrin hər biri Allah qatında ən incə təfərrüatına qədər planlanıb. Məsələn, hz. Yusif (ə.s) heç bir təqsiri olmadığı halda illərlə zindanda qalmışdır. Bu, onun qədərindədir. Ancaq hz. Yusif (ə.s) Allah`ın yaratdığı qədərə sevinclə təslim olduğu üçün həbs ona çətinlik və sıxıntı deyil, əksinə, bir çox nemətin qapısını açan hadisə kimi görünmüşdür. Belə bir çətinliyi asan, rahat mühitlə müqayisə edən mömin nemətlərdən daha dərin zövq alır. Hər gün bir gül bağçası görən bir insanın bu bağçadan aldığı zövq ilə illərlə beton divardan başqa heç nə görməmiş insanın gül bağçasından aldığı zövq, əlbəttə, fərqlidir. Çətinliyi, çirkinliyi bilən insan rahatlıqdan, gözəllikdən daha çox zövq alar. Qədərində hz. Yusif (ə.s) kimi haqsızlığa, çətinliyə, həbsxana mühitinə səbir etmək olan insan bunun axirətdə Allah`dan savab kimi özünə qayıdacağını düşünərək qədərinə sevinər. Nəticədə, qədərində olanı yaşadığını və özü də daxil olmaqla, heç bir yaradılmış varlığın onun qədərindəki bircə saniyəni belə dəyişdirə bilməyə-



cəyini bilir və qədərinə təslim olaraq rahat yaşayar.

Qədərə təslim olan mömin, əlbəttə, həmişə əlindən gələnin artığını edərək səy göstərər. Məsələn, xəstələnən insan, əlbəttə, həkimə gedər, dərmanlarını qəbul edər, xəstəliyi ilə bağlı hər şeyə diqqət edər. Ancaq bunları edərkən getdiyi həkimin, qəbul etdiyi dərmanların və müalicəsinin nəticəsini Allah`ın yaratdığını bilərək davranar. Odur ki, əsla ümidsizliyə qapılmaz, sıxıntı keçirməz, kədərlənməz. Allah`ın onun üçün ən xeyirli qədəri yaratdığını bilərək rahat yaşayar. İnsanın hər hadisədə bir xeyir olduğuna iman gətirməsi çox vacibdir.

Möminlər şər kimi görünən hadisələrdə belə xeyir olduğuna iman gətirir və Allah`a təvəkkül edirlər. Bu, ancaq möminlərə xas xüsusiyyətdir. Peyğəmbərimiz (s.ə.v) bir hədisində bu mövzuya belə diqqət çəkir:

*Möminin vəziyyəti nə qədər təəccüblüdür. Çünki hər işi onun üçün xeyirdir. Bu, sadəcə möminə xasdır, başqasına deyil. Ona razı qalacağı bir şey gəlsə, şükür edər, bu isə xeyirdir. Bir zərər gəlsə, səbir edər, bu da xeyirdir. (Muslim, Zühd 64, 2999)*

## Allah bütün kainatın yeganə hakimidir, sonsuz güc sahibidir

Allah`ın yeganə güc sahibi olduğunu bilən bir insan Allah`a təslim olub təvəkkül edər. Çünki bir insanın başına gələn hər hadisə, qarşılaşdığı hər insan, hər söhbət, hər səs Allah`ın nəzarəti altındadır. Peyğəmbərimizin (s.ə.v) də bildirdiyi kimi, Allah`dan gələn hər şey mömin üçün nemət və xeyirdir. Möminlərin bu həqiqəti dərk edərək Allah`a təvəkkül etdiyini Allah bir ayədə belə bildirir:



*Mən, Rəbbim və Rəbbiniz olan Allah`a təvəkkül etdim. Elə bir canlı yoxdur ki, (Allah) onun kəkilindən tutmuş olmasın. Həqiqətən, Rəbbim ədalətlidir. (Hud surəsi, 56)*

Allah`a təvəkkül etməyərək, hər şeyi öz gücləri ilə etdiyini, hər şeyin öz nəzarətləri altında baş verdiyini zənn edənlər isə daima qorxu, kədər, narahatlıq və ümidsizlik içində olurlar. Bu, bir filmə baxan insanın sanki filmin sonunu dəyişdirə biləcəkmiş kimi həyəcanlanmasına bənzəyir. Belə bir qorxu nə qədər yersizdirsə, qədərini izləyən insanın da hadisələr qarşısında bu cür hisslərə qapılması o qədər yersizdir. Məsələn, təqsirsiz insana böhtan atanlar Allah`ın nəzarəti altında olan varlıqlardır. Allah insanı sınamaq üçün bu hadisələri yaradır. Bunlara səbir etsə, Allah`ın rizasını, cənnətini və rəhmətini qazanmağa ümid bəsləyən mömin üçün kədərlənəcək heç bir səbəb olmaz. Bundan əlavə, Allah möminlərə həmişə yardım edir və onlara işlərində asanlıq yaradır. Bu, Allah`ın qəti vədidir. Allah bir ayəsində haqsızlığa məruz qalanlar haqqında belə buyurur:

*Bax belə! Hər kim özünə verilən cəza kimi cəza versə, sonra yenə də haqsızlığa məruz qalsa, (bilsin ki,) Allah ona mütləq kömək edəcəkdir. Həqiqətən, Allah əfv edəndir, bağışlayandır! (Həcc surəsi, 60)*

## Müsəlmanlar üçün təvəkkül və təslimiyyət yeganə yoldur

Allah`ın gücünü, yardımını və dostluğunu bilən möminlər üçün təvəkkül və təslimiyyət yeganə yoldur. Təvəkkül və təslimiyyət ən gözəl, ən asan yoldur. Əks təqdirdə, insan qaldıra bilməyəcəyi yükün altına girər.

Burada izah edilənlər insanların özlərinə və ya bir-birlərinə təsəlli vermələri, çətinliklər zamanı düşünərək özlərinə təlqin etmələri üçün verilən məlumatlar deyil. Bunlar Allah`ın yaratmasının və dünya həyatının gerçək üzüdür. Əksinə, inanan və əksini



edən özünü aldadıb yanılır. Odur ki, din əxlaqından uzaq yaşayan bir insan ən varlı, ən rahat günlərində belə təvəkkülsüzlüyün sıxıntısını çəkərkən həqiqətlərə iman gətirən bir mömin hansı şəraitdə olsa da, din əxlaqının insanlara verdiyi asanlığı, sevinci, rahatlığı yaşayar.

## Allah Quranda möminlər haqqında belə bildirir:

*Şübhəsiz ki, Allah`ın dostlarının heç bir qorxusu yoxdur və onlar kədərlənməyəcəklər. Onlar iman gətirmiş və (Allah`dan) qorxmuşlar. Dünya həyatında da, axirətdə də onlara müjdə vardır. Allah`ın kəlmələri əsla dəyişilməz. Bu, böyük uğurdur. (Yunis surəsi, 62-64)*

Təvəkkülsüz insanın şübhələri, narahatçılığı, qorxuları bitməz. Hər şey bu insan üçün təhlükə daşıyır. Hər yerdən, hər insandan özünə zərər gələcəyinə inanır. Şübhəçi, narahat yaşayır. Allah`a güvənmədiyi üçün sıxıntıları ilə qovurulur. İmanlı insan isə Allah`a güvəndiyi, Onu dost bildiyi üçün təvəkkülün rahatlığı ilə çox şən, sağlam əhval-ruhiyyə ilə yaşayır. Belə bir insanı sarsıdacaq, kədərləndirəcək heç nə yoxdur. Çünki hər şeyi Rəbbimizin yaratdığını bilir. Rəbbimizin sonsuz gücünə güvənir. Bu sonsuz gücün dəstəyi ilə hərəkət etdiyini bilərək rahat yaşayır. Allah istəmədikcə heç kəsin ən adi bir şey edə bilməyəcəyini dərk edərək, hər an qədərinə təslim olur.



# BİTKİ RƏNGLƏRİNDƏKİ SƏNƏT

- Ətrafınızdakı çiçəklərin nə üçün bu qədər müxtəlif rəngləri olduğunu heç düşünmüsünüzmü?
- Bitkilərin yarpaqları nə üçün yaşıldır?
- Metrlərlə hündürlüyü olan ağacların ən uc-dakı budaqları belə yaşıl rəngini necə qoruyur?

Meyvələr, tərəvəzlər, çiçəklər və ağacların hər birinin müxtəlif rəngi, qoxusu və dadı var. Şübhəsiz ki, bu xüsusiyyət Allah`ın yaratma sənətinin dəlillərindəndir. Ətrafınızda hər an gördüyünüz, bəzən də ancaq kitablardan tanıdığınız bitkilərin hər birinin özünəməxsus rəng və naxışları var. Hamısının çoxalma forması fərqlidir, tərkiblərindəki nektarın miqdarı, qoxuları da fərqlənir. Gülləri düşünək. Qırmızı, ağ, sarı, narıncı, çəhrayı, kənarları ağ, əlvan rəngli, hətta bir-birinə keçid edən rəngləri olan növbənöv çiçəklər var. Sözsüz ki, bunları görən insanın heyran olmaması, çiçəkləri yaradan uca Allah`ın sonsuz qüdrətini qavramaması korluqdur. Allah Quranda gördüyü yaradılış dəlillərini təqdir edə bilməyən insanlar haqqında belə buyurur:



***Göylərdə və yerdə neçə-neçə dəlillər vardır ki, onların yanından üz çevirib keçirlər. Onların əksəriyyəti ancaq şərik qoşaraq Allah`a inanarlar. (Yusif surəsi, 105-106)***

## Bitkilərin nə üçün yaşıl rəngdə olduğunu heç düşünmüsünüzmü?

Məlum olduğu kimi, bitkilər aləmində hakim rəng yaşıl və yaşılın çalarlarıdır. Yaşıl rəngi əmələ gətirən əsas maddə isə xlorofildir. Çox mühüm maddə olan xlorofil bitki hüceyrəsinin sitoplazmasında yayılmış halda yerləşən xloroplastlardakı piqmentdir. Günəşdən qəbul etdikləri işığı asanlıqla udan bu piqmentlər ancaq yaşıl rəngi əks etdirirlər. Bu xüsusiyyət yarpaqlara yaşıl rəng verməklə yanaşı, fotosintez kimi həyati əhəmiyyətli prosesin həyata keçməsini də təmin edir.

Bitkilər fotosintez prosesində fərqli rənglərin birləşməsindən təşkil olunmuş günəş işığından istifadə edirlər. Günəş işığındakı rənglərin ən əsas xüsusiyyətlərindən biri enerji yüklərinin fərqli olmasıdır. Bu rənglərin ayrılması ilə ortaya çıxan və spektr adlanan rəng ardıcıllığının bir ucunda qırmızı və sarı rəngin çalarları, digər ucunda isə mavi və bənövşəyi rəngin çalarları yerləşir. Ən çox enerji daşıyanlar spektrin mavi ucundakı rənglərdir.

Rənglər arasındakı bu enerji fərqi bitkilər üçün böyük əhəmiyyət daşıyır. Çünki fotosintez etmək üçün çox enerjiyə ehtiyacları var. Odur ki, bitkilər fotosintez zamanı günəş şüalarından ən çox enerji daşıyanları, yəni spektrin ultrabənövşəyi ucundakı rənglərlə (mavi və bənövşəyi) yanaşı, spektrin infraqırmızı ucundakı rəngləri (qırmızı, narıncı və sarı) udurlar. Yarpaqlar bütün bu prosesləri xloroplastlardakı xlorofil piqmenti sayəsində bacarırlar.

Bitkinin fotosintez etməsi üçün xlorofilin udduğu işıq zərrəciklərinin enerji səviyyəsi lazımi qədər olmalıdır. Qısa şəkildə fotosintez prosesini şərh edək. Bitki işıq zərrəciklərindən aldığı enerji ilə su molekullarını parçalayır və oksigen və hidrogen molekullarını əldə edir. Əldə edilən hidrogen bitkinin həyatını davam etdirməsi üçün karbon qazındakı karbon atomları ilə reaksiyaya girərək bitkinin şirəsinə çevrilir. Yəni bitki öz qida maddəsini əmələ gətirir. İstifadə edilməyən oksigen isə havaya verilir. Atmosferdən qəbul etdiyimiz oksigenin böyük faizi bu yolla əmələ gəlir.

Göründüyü kimi, bitkilərin yaşıl olması estetik görüntü ilə yanaşı, həm bitkilərin, həm də digər canlıların həyatı üçün böyük əhəmiyyət daşıyır. Allah bitkilərin və bütün digər canlıların qidalanmasında



xlorofil maddəsini səbəb edir.

Çiçəklərin rəngləri və naxışları bənzərsizdir. Yer üzündəki minlərlə çiçək növünün hər birinin özünəməxsus xüsusiyyətləri var. Dövrümüzdə insanlar təbiətdəki bənzərlərini təqlid etməklə ətirlər, naxışlar və rənglər istehsal edirlər. Məsələn, bənövşələrin məxməri yumşaqlığı, yarpaqlarının bənövşəyi rəngi və yarpaq toxumalarının hamarlığı möhtəşəmdir. Məxmər parçalar bənövşələrin təqlid edilməsi ilə istehsal olunur, ancaq yenə də həmin keyfiyyət



əldə edilə bilmir. Bu şəkildə düşünərək yer üzündəki hansı bitkini təhlil etsək, mükəmməl yaradılışla qarşılaşarıq. Yaratmada heç bir ortağı olmayan Allah dadı, qoxusu, rəngi, naxışı fərqli olan bitkiləri insan üçün yaratmışdır. Biz isə Allah`ın yaratdığı dəlillər üzərində düşünüb şükür etməliyik.

## Bitkilərin fərqli rəngləri necə meydana gəlir?

Hər maddənin əks etdirdiyi rəng həmin maddənin piqment molekullarından asılıdır. Yaşıl bitkilərdəki piqment molekulu xlorofildir. Bununla yanaşı, bitkilərdə başqa rəngləri əmələ gətirən piqmentlər də var və bu piqment növləri bitkilərdəki qeyri-adi rəng müxtəlifliyinin əmələ gəlməsinə səbəb olur.

Xlorofildən əlavə, bitkilərdə karotinoid adlanan piqmentlər var. Bu piqmentlərdən bəzisi sarıdır: qarğıdalıya, limona, günəbaxana rəng verir. Digər karotinoidlər isə daha çox qırmızıya çalırlar. Bunlar şəkər çuğundurunda, pomidorda, güllərdə, yerkökündə olur. Karotinoidlər həm də yaşıl yarpaqların içində var. Bəs niyə yarpaqlar qırmızı, sarı və ya narıncı deyil, yaşıl rəngdə görünürlər? Bunun səbəbi xlorofilin yaşılının digər rənglərin görünməsinin qarşısını alacaq qədər güclü olmasıdır.

Bununla yanaşı, payızda dəyişikliklər baş verir. Günəş işığının azalması ilə bitkilər xlorofil hasil etməyi dayandırırlar və buna görə də yaşıl rəng verən piqmentlərin gücü azalır və yarpaqlardakı yaşıl rəng solmağa başlayır.

Karotinoidlər yarpaqları qəhvəyi, sarı və qırmızı rəngə boyayırlar. Eyni zamanda, payızda bəzi yarpaqların xarici təbəqələrində antosian adlanan piqmentlər hasil edilir. Parlaq qırmızı və mavi rəngdə olan bu piqmentlər yarpaqlarda qırmızı və çəhrayı rəng əmələ gətirən maddələrdir. Əgər bitkidə birdən çox piqment olarsa, onda bitkidə piqmentlərin əks etdirdiyi rənglərin qarışığı görünür.

## Dünyanın hər yerində eyni növdəki çiçəklərin eyni naxışları və rəngləri var və əsla dəyişmirlər

Bitkiyə rəng verən piqmentlərin hamısının məlumatı bitkinin DNT-sində şifrlənib. Ona görə də bir bitki növü dünyanın hər yerində eyni xüsusiyyətləri daşıyır. Məsələn, dünyanın hər yerindəki portağalların rəngi eynidir, formaları və qabıqlarının toxuması da fərqlənmir. Portağalın qabığının içində yerləşən narıncı rəngli, ətirli, şirin su dolu torbacıqları əmələ gətirən şəffaf pərdənin rəngi dünyanın hər yerində



eynidir, dəyişmir. Bananlar dünyanın hər yerində eynidir, pomidorlar qırmızı, güllər, bənövşələr, qərənfillər də eynidir. Dünyanın hər yerində təbii olaraq yetişən çiyələyin fərqli rəngdə olduğunu görə bilməzsiniz. Dünyanın hər yerindəki çiyələklərin DNT-sində çiyələyə məxsus xüsusiyyətlər qeyd olunub. Çiyələyin rəngi, qoxusu, dadı da eynidir. Bu, bənzərsiz nizamdır. Belə bir nizamın öz-özünə, təsadüfən əmələ gəldiyini iddia etmək olmaz.

Dünyanın hər yerinə hakim olan bu bənzərsiz sənətin sahibi



üstün ağıl sahibi olan Allah`dır. Allah hər şeyə qadirdir. Allah "Rəd" surəsində eyni su ilə sulanmasına baxmayaraq, torpaqdan müxtəlif bitkilər çıxmasına belə diqqət çəkir:

*Yer üzündə bir-birinə yaxın qitələr, eyni su ilə sulanan üzüm bağları, əkinlər, şaxəli-şaxəsiz xurma ağacları vardır. Halbuki, Biz yemək baxımından onların birini digərindən üstün tuturuq. Şübhəsiz ki, bunda da anlayıb dərk edən insanlar üçün əlamətlər vardır. (Rəd surəsi, 4)*

Allah`ın ayədə diqqət çəkdiyi kimi, eyni torpaqdan müxtəlif bitkilərin çıxmasını ətrafımızdakı tərəvəz və meyvələr üzərində düşünək. Məsələn, qarpız, yemiş, kivi, banan, gilas, badımcan, pomidor, üzüm, şaftalı, lobya... Tünd sarı rəngli qabığını açdıqda içindən gözəl ətirli, açıq-sarı rəngli banan çıxır. Almanın qırmızı, yaşıl və sarı rəngli qabığı hamar və cilalıdır. Almanın ətirli şirin şirəsinin dadı və qoxusu insanlar tərəfindən əsla təqlid edilə bilmir. İnsan yeni bir rəng yarada bilmir. İnsanların əmələ gətirdiyi bütün rənglər təbiətdə olan rənglər əsasında əldə edilir. Ancaq Allah yoxdan yaradandır və yer üzündəki canlıları tamamlayan rənglərin hamısını O yaradıb. Allah`ın yaratma sənətinin tayı-bərabəri yoxdur. Üstün güc sahibi Allah`ın isimlərindən biri Müsəvvirdir (təsvir edən, hər şeyə forma və surət verən). Allah hər şeyi ən gözəl surətdə yaradıb:

*O, yaradan, yoxdan var edən, surət verən Allah`dır. Ən gözəl adlar ancaq Ona məxsusdur. Göylərdə və yerdə nə varsa Onu təqdis edib şəninə təriflər deyər. O, yenilməz qüvvət sahibi, hikmət sahibidir! (Həşr surəsi, 24)*

Yer üzündəki bütün rəngləri yaradan Allah`dır. Göy üzü, dağlar, tarlalar, kəpənəklər, qırmızı almalar, portağallar, tutuquşular, qırqovullar, üzümlər, ağaclar, qısası, ətrafınızda gördüyünüz hər şey Allah istədiyi üçün bu rənglərə malikdirlər. Allah Quranda bunu bizə belə bildirir:

*Məgər Allah`ın göydən yağmur endirdiyini və onunla müxtəlif rəngli meyvələr yetişdirdiyimizi görmürsənmi? Dağlarda da müxtəlif rəngli – ağ, qırmızı və tünd qara cığırlar əmələ gətirdik. İnsanlar, heyvanlar və mal-qara arasında da bu cür müxtəlif rəngli olanları vardır. Allah`dan Öz qulları arasında ancaq alimlər qorxarlar. Həqiqətən, Allah qüdrətlidir, bağışlayandır. (Fatir surəsi, 27-28)*

Düşünən İnsan, Aprel 2014

# Qılınc balığındakı hikmətli yaradılış nümunələri



## Sürətli üzə bilmələrinin səbəbi bədən quruluşlarıdır:

Qılınc balıqlarının bədən forması sualtı silah kimi istifadə edilən bombaya bənzəyir. Kürək üzgəcinin ön tərəfi oraq formasında və yüksək olub, sinə üzgəcləri uzun, iti və qarnına yaxın yerləşmişdir. Quyruğunun yan tərəflərində uzunlamasına bir xəncər var. Quyruq üzgəci oraq formasında olub, çox güclüdür. Gövdəsi qabarcıqlarla örtülmüşdür və qarın üzgəcləri yoxdur. Balığın malik olduğu bu xüsusiyyətlər, əslində, onun sürətlə üzməsi üçün yaradılmışdır. Belə ki, bu canlı saatda 96 km sürətlə üzür və 60 saniyədə 1.500 metr məsafəni qət edir. Qılınc balığının malik olduğu bu xüsusiyyət insanlara heyvanlardakı möhtəşəm yaradılış dəlillərini görmək və bu vasitə ilə Allah’ın qüdrətini haqqı ilə təqdir edib, Onu təriflə ucaltmaq üçün kifayətdir. Bir ayədə Rəbbimizin yaratma elmi belə xəbər verilmişdir:

***“Allah hər bir canlını sudan yaratmışdır. Onlardan bəzisi qarnı üstə sürünür, bəzisi iki ayaq üstündə gəzir, bəzisi də dörd ayaq üstündə gəzir. Allah istədiyini yaradır. Şübhəsiz ki, Allah hər şeyə qadirdir”. (Nur surəsi, 45)***

## Kamuflyaj xüsusiyyəti

Qılınc balığı yaşamaq üçün ona bəxş edilmiş xüsusi sistemlərlə qida əldə edərkən, eyni zamanda, özünü düşmənlərindən də qoruyur. Bu canlıların özlərini qorumaq üçün məqsədilə kamuflyaj xüsusiyyətindən də istifadə edirlər. Qılınc balığının rəngi mövsümə və dənizin rənginə görə dəyişir və bu, canlının seçilməsini çətinləşdirir. Kürəyi göy rəngdə olan bu balığın yan tərəfləri mavi rəngə çalan boz rəngdədir. Lakin bu rəng metal mavisinə, göyə, boza çalan maviyə, hətta bürünc rənginə çevrilərək onun seçilməsinə mane olur. Qarın hissəsinin ağ olmasının səbəbi isə altdan baxdıqda göy üzünün parlaqlığına görə ilk anda seçilməməsidir. Beləcə, daha böyük balıqlar tərəfindən ovlanması çətinləşir. Kamuflyaj kainatda heç bir ziddiyyət və əlverişsizlik olmadığını və Allah’ın güc, ağıl və elminin sonsuz olduğunu göstərən nümunələrdən yalnız biridir. “Mülk” surəsində Allah kainatdakı qüsursuz nizamı belə xəbər vermişdir:



*"...Sən Rəhmanın yaratdığında heç bir uyğunsuzluq görməzsən. Bir gözünü qaldırıb (səmaya) bax, heç orada bir yarıq görə bilərsənmi?! Sonra gözünü qaldırıb iki dəfə bax. Göz orada zəif, yorğun düşərək yenə də sənə tərəf qayıdacaqdır!" (Mülk surəsi, 3–4)*

## Qılınc balığının maraqlı görmə xüsusiyyəti

İlıq və isti dənizlərdə yaşayan 18-22°C temperaturlu suları seçən qılınc balığı 200-600 m dərinliyə qədər enə bilir. Ancaq dənizin 600 metr dərinliyində hərarət 5°C-yə qədər düşür. Çox qısa zamandakı ani hərarət dəyişikliklərinin balığın bədən funksiyalarına təsir etməməsi üçün o, "beyin isitmə sistemi" adlanan xüsusi sistemlə təchiz olunmuşdur. Bu sistem sayəsində onun gözləri və beyinləri 19-28°C arasındakı hərarətdə saxlanılır. İsitmə sistemi balığın gözlərinin görmə funksiyası üçün lazım olan hərarəti təmin edir. Görmə bir sıra kimyəvi hadisələr nəticəsində reallaşır. Hava sərinləşdikcə kimyəvi reaksiyalar daha uzun müddət tələb edir. Buna görə də soyuqqanlı canlılar sürətli hərəkət edən obyektləri görmək üçün özlərini isitmək məcburiyyətindədirlər.

Təxminən 2,5 - 3 metr uzunluğundakı qılınc balığının göz bəbəyinin diametri 9-10 sm-dir. Gözün böyük olması bu canlının dəqiq görməsinə kifayət etmədiyi üçün tor qişası istiliyə qarşı çox həssas yaradılmışdır. Beləliklə, balıq ovlayacağı canlıları dərin və sərin sularda isidilməmiş gözlərə nisbətən 7-12 dəfə daha dəqiq və doğru görür. Rəbbimiz bütün canlıları ehtiyaclarına görə yaratdığını bir ayədə belə bildirir:

*Sizin yaradılışınızda və (Allah'ın yer üzünə) yaydığı canlılarda qəti iman gətirmiş insanlar üçün neçə-neçə dəlillər vardır. (Casiyə surəsi, 4)*



Uca Allah qılınc balıqlarının göz və beyin quruluşlarını bənzərsiz xüsusiyyətlərlə yaratmışdır. Bu canlıların beyin hissəsindəki əsas sümük nazikdir və digər canlılardan fərqli olaraq sümük əvəzinə nazik toxuma ilə örtülmüşdür. Bundan başqa, göz kürəsinin ətrafı xüsusi yaradılmış əzələlərlə örtülmüş və arteriyalar bu əzələnin içində şaxələrə ayrılmışdır. Beləliklə, əzələdən çıxan vena və arteriyanın nazik damarları bir-birinə paralel yerləşdirildikləri üçün əks qan axımı sistemi reallaşır və çoxlu istilik çatdırılması baş verir. Uca Rəbbimizin yaratdığı bu xüsusi sistem sayəsində istilik itkisinin qarşısı alınmış olur.

Əzələnin orta hissəsindəki qan damarlarının ətrafı da xüsusi hüceyrələrlə əhatə edilmişdir. Bu hüceyrələr istilik istehsal edən və yağ toxumasına bənzəyən xüsusi quruluşlu hüceyrələrdir. Ağac budaqlarına bənzəyən qan damarları isə beyinin istiliyi çatdıran və xüsusi nazik lif toxuması ilə əhatə olunmuş hissəsini isidir. Beyinin böyük miqdarda yağlı toxuma ilə örtülməsi, həmçinin göz ətrafının yağlı toxuma ilə əhatə olunması gözün hər zaman isti qalmasını və balığın dərin və sərin sulara endikdə rahat görməsini təmin edir. Bütün kainatı yaradan uca Rəbbimiz ayədə qılınc balığının gözləri kimi bütün canlı gözlərini də yaradanın Özü olduğunu belə xəbər verir:

***"De: "Sizə göydən və yerdən ruzi verən kimdir? Qulaqlara və gözlərə hakim olan kimdir? Ölüdən diri çıxaran, diridən də ölü çıxaran kimdir? İşləri yoluna qoyan kimdir?" Onlar deyəcəklər: "Allah!" De: "Bəs (Allah'dan) qorxmursunuz?""" (Yunis surəsi, 31)***

# Fosillər təkamülü təkzib edir



## Palıd yarpağı

**Dövr: Kaynozoy erası, Eosen dövrü**
**Yaşı: 45 milyon il**
**Bölgə: Uayt River, Vayominq, ABŞ**
**Fosillər bitkilərin təkamül keçirmədiyini, hər hansı xəyali əcdadının olmadığını göstərir. Balıqlar balıq, quşlar quş, hörümçəklər hörümçək, şamlar şam, küknarlar küknar, güllər gül kimi mövcud olduğu kimi, palıd da palıd kimi mövcud olub. Şəkildəki 45 milyon illik palıd yarpağı fosili də bu faktı təsdiqləyir.**











## Dəniz iynəsi

**Dövr: Kaynozoy erası, Miosen dövrü**
**Yaşı: 23-5 milyon il**
**Bölgə: Kaliforniya, ABŞ**
**Dəniz iynəsi dəniz atları ilə eyni yarımfəsiləyə (Syngathoidei) daxil olan kiçik balıq növüdür. 23-5 milyon yaşındakı dəniz iynələri ilə dövrümüzdə yaşayan dəniz iynələri bir-birindən fərqlənmir. Bu isə canlıların mərhələli şəkildə təkamül keçirdiyini iddia edən darvinistləri təkzib edir.**









## Sərtqanadlı böcək növü

**Dövr: Kaynozoy erası,**
**Pleystosen dövrü**
**Yaşı: 1.8 milyon – 11 min il**
**Bölgə: Kaliforniya, ABŞ**
**Dövrümüzdə yaşayan nümunələrindən heç bir fərqi olmayan bu böcək də yer üzündəki bütün canlıların Allah tərəfindən yaradıldığını sübut edir.**









# İslam və Keyfiyyət

İslamda keyfiyyət çox həyati məsələdir. Dövrümüzdə bir çox İslam ölkəsində sevgidən, tolerantlıqdan, incəsənətdən, gözəllik və estetikadan uzaq həyat tərzi hakimdir. Bu vəziyyət Allah`ın Quranda bizə tərif etdiyi gözəl, təmiz həyat tərzinə tamamilə zidd olmasına baxmayaraq, yenə də bu xalqlar tərəfindən doğru qəbul edilir. Halbuki, keyfiyyətsiz, estetikadan uzaq həyat tərzi müsəlmana əsla yaraşmaz.

Keyfiyyətdən uzaq həyat tərzi insanın düşüncə tərzindən həyatdan aldığı zövqə, hədəflərindən gözəllik, estetika və zarafat anlayışına, ədəb-ərkanından söhbətinə, süfrə davranışına qədər bütün həyatına təsir edir. Keyfiyyətə əhəmiyyət vermədikdə və insanların həyatında estetika, gözəllik kimi məfhumlar olmadıqda isə dünya bir növ cəhənnəmə çevrilir.

Bu kobud həyat tərzinin tam əksinə, keyfiyyət, təmizlik və etikanın əhəmiyyəti Quranda xüsusi vurğulanmışdır. Uca Allah bir ayəsində ***"Libasını təmizlə! Pis şeylərdən uzaqlaş!" (Muddəssir surəsi, 4-5)*** buyuraraq müsəlmanların bütün imkanlarından istifadə edərək tər-təmiz həyat yaşamalarını bildirmişdir. Ona görə də keyfiyyət müsəlmanların ən əsas xüsusiyyətlərindən biridir.

Hal-hazırda İslam aləminin ən böyük problemlərindən biri məhz keyfiyyətin bəzi müsəlman ölkələrdə çatışmamasıdır. Əlbəttə, İslam əxlaqını doğru anlayıb yaşayan, keyfiyyətə, incəsənətə, estetikaya lazımi qiymət verən çox səmimi müsəlmanlar da var. Ancaq bəzən informasiya və təhsil çatışmazlığına, bəzən də İslamı Quran əvəzinə



adət-ənənələrdən öyrəndiklərinə görə dünyanın bir çox yerində bu cəhətdən geridə qalmış müsəlmanlar var. Müsəlmanlar əleyhinə propaqanda yaymaq istəyən kütlələr də əsasən keyfiyyət əksikliyinin olduğu ölkələri dünyaya "əsl müsəlman modeli" kimi tanıtmağa çalışırlar. Bu səbəbdən televiziyada, qəzetlərdə, internetə yüklənən şəkil və videolarda dünyanın bir çox yerindən olan müsəlmanlardakı keyfiyyət əksikliyini göstərən mənzərələrlə rastlaşırıq. Odur ki, İslamı yanlış anlayıb yanlış yaşayan müsəlmanlar bütün dünyanın İslamı yanlış tanımasına səbəb olurlar.

Bu yanlış nümunələrə görə bir çox insan "müsəlman" dedikdə qaba, sevgisiz, bədbin, incəsənətdən uzaq, elmə qarşı çıxan, zarafat anlayışı olmayan, gözəl və estetik geyinməyi bilməyən, müasirlikdən uzaq insan modeli təsəvvür edir. Musiqidən zövq almayan, şən insanlara müdaxilə edən, təmizliyə diqqət etməyən, nəzakətsiz, şəfqətsiz, qadınları ikinci, hətta üçüncü sinif varlıqlar kimi görüb onlara dəyər verməyən düşüncə tərzi dünyanın bir çox yerində müsəlmanların əsas xüsusiyyətləri kimi qəbul edilir. Bu isə, təbii olaraq, dünya ictimaiyyətində narahatlığa səbəb olur, insanlarda İslama qarşı əks-münasibət doğurur.

Bəzi müsəlman qardaşlarımız isə bunun əsl səbəbinin İslamı yanlış anlayıb, yanlış yaşayıb, dünyaya da yanlış tanıdan müsəlmanlar olduğunu dərk etmir, insanları "İslama qarşı çıxmaqla və müsəlmanlara düşmən olmaqla" təqsirləndirirlər. Halbuki, insanlar əsl İslama deyil, gördükləri yanlış müsəlman modelinə görə zehinlərində formalaşmış yanlış dinə- keyfiyyətsizliyə əks-münasibət bəsləyirlər. Bu əks-münasibətin digər səbəbi də həqiqi İslamla əlaqəsi olmayan keyfiyyətsiz, kirli, çirkin, baxımsız müsəlman modelini bəzi müsəlmanların israrla müdafiə etməsidir.

Halbuki, din sevgi, mərhəmət, şəfqət, dostluq, təmizlik, yaxşı-

Düşünən İnsan, Aprel 2014



lıq, gözəllik, rahatlıq, mehribanlıq, yoxsulları, yetimləri, ehtiyac içində olanları, yaşlıları, Allah`ın yaratdığı hər şeyi – insanları, bitkiləri, heyvanları, qısası, bütün varlıqları sevmək deməkdir. Bu cür üstün əxlaq anlayışı isə, əlbəttə, həyatın hər sahəsinə, insanların bütün düşüncə və davranışlarına keyfiyyət və kübarlıq qazandırır. Ona görə Qurandakı əxlaqla yaşayan müsəlmanlar yer üzünün ən keyfiyyətli, əsalətli insanları olurlar.

Bəzi müsəlman xalqlar keyfiyyətsiz həyat tərzindən xilas olmaq üçün, əvvəla, keyfiyyətin müsəlmanların əsas xüsusiyyəti və Quran əxlaqının tələbi olduğunu dərk etməli və qəbul etməlidirlər. Daha sonra bu müsəlman xüsusiyyətini ən gözəl şəkildə tətbiq etmək üçün keyfiyyəti həyatlarının hər sahəsinə aid etməli, keyfiyyəti rəhmani məqsədlə səbirlə və qətiyyətlə həyat tərzlərinə hakim etməlidirlər.

İncəsənətdə, elmdə, estetikada, siyasətdə, qısası, hər sahədə və hər yerdə keyfiyyət olduqda İslama qarşı insanlarda formalaşmış mənfi rəy də aradan qalxar. Qarşınızdakı insan dinsiz də olsa, ona “sevgi, mərhəmət, şəfqət, dostluq, yoldaşlıq, demokratiya, xoş niyyət, sosial ədalət, elmdə, incəsənətdə, estetikada irəliləyiş olan, xoşsöhbət mühit” təqdim edilsə, qəbul edər. Həqiqi İslam da belədir, bütün bu xüsusiyyətlər ən üstün səviyyədə İslam əxlaqında var.

Məsələn, Peyğəmbərimiz (səv) yaşadığı dövrün imkanları çox məhdud olmasına baxmayaraq, keyfiyyətə, estetikaya və gözəlliyə çox əhəmiyyət vermişdir. Yaşadığı dövrün çətin şəraitində səhra mühitində evinin ətrafında gül becərmişdir. Ən çətin şəraitdə belə ən gözəl, ən



estetik, ən keyfiyyətli mühiti yaratmağa çalışmışdır. Peyğəmbərimizin (səv) özü, paltarları, evi həmişə tər-təmiz olmuşdur. O dövrün imkanları çərçivəsində ən keyfiyyətli, ən gözəl ətirdən istifadə etmiş, ən keyfiyyətli, görkəmli, yaraşıqlı paltarları geyinmişdir. Müraciət üslubu, seçdiyi cümlələr, nitq mədəniyyəti çox keyfiyyətli olmuşdur. Yerişi, oturuşu-duruşu, yemək ədəbi çox keyfiyyətli idi. Hər anına, hər halına keyfiyyət hakim olmuşdur.

Ona görə müsəlmanlar da əxlaq anlayışlarını və həyat tərzlərini müəyyən edərkən uca Allah`ın Quran ayələri ilə tərif etdiyi, insanlara nümunə göstərdiyi Peyğəmbərimizin (səv) gözəl əxlaqından nümunə götürməlidirlər.

Həqiqi İslam əxlaqını mənimsəmiş müsəlmanlar İslamı yanlış anlayaraq keyfiyyətsiz həyat tərzi yaşayan xalqlara bu əxlaqı təbliğ etməlidirlər. Keyfiyyətsiz, kirli, baxımsız, bədbin, müasirlikdən, incəsənətdən, estetikadan, əxlaq və ədəbdən uzaq modelin həqiqi İslamla əlaqəsi olmadığını bu xalqlara göstərməlidirlər.

Unutmaq olmaz ki, əks təqdirdə həm yaxşı niyyətli bir müsəlman həqiqi İslamdan uzaq əxlaq və həyat modeli ilə yaşayaraq Allah`ın rizasını qazanmaqdan məhrum olacaq, həm də qeyri-müsəlman xalqlar İslamı yanlış tanıyaraq İslama qarşı gərəksiz əks-münasibət bəsləyəcəklər.

Bunun qarşısı alındıqda isə dünya sülh və əmin-amanlığa qovuşacaq, müxtəlif inanclara, fikirlərə malik xalqlar belə tolerantlıqla birlikdə yaşamaq imkanı əldə edəcəklər.

Cənab Adnan Oktarın "The International Daily Mail"-də dərc olunan məqaləsinə aşağıdakı linkdən daxil ola bilərsiniz:

*http://dailymailnews.com/2014/02/07/columns-articles/1.php*

# TEXNOLOGİYAYA İLHAM MƏNBƏYİ OLAN DƏNİZ CANLILARI



## Molyuskların su püskürtmə sistemi və generatorlar

Kalmar, mürəkkəb balığı və osminoq kimi başıayaqlı molyusklar su püskürtmə sistemi ilə üzürlər. Mühəndislər molyuskların bu xüsusiyyətindən ilham alaraq sürət texnologiyasını təkmilləşdirməyə çalışırlar.




Uca Allah başıayaqlı molyuskların sürətlərini artırmaları üçün xüsusi sistem yaradıb. Mühəndislərin heyranlıqla və diqqətlə tədqiq etdikləri bu sistem qüsursuz işləyir. Bu canlıların reaktiv üzmə sistemi uca Allah`ın onlar üçün yaratdığı xüsusi bədən quruluşlarından qaynaqlanır. Bəs bu canlıların bədən quruluşu necədir?

Başıayaqlı molyusklarda daxili orqanların yerləşdiyi bədən boşluğunu əhatə edən manto adlı qalın dəri qatı var. Dəri qatının altında yerləşən əzələlər vasitəsilə bu canlılar bədənlərinə su toplayır və sonra bu suyu qüvvə ilə geri püskürərək üzürlər. Manto divarının içinə dolan su qıf formasındakı boru vasitəsilə püskürdülərək xaric edilir. Sistemin işləməsi eynilə kosmik gəmilərin istehsalındakı geri itələmə prinsipinə, başqa sözlə, raket sisteminə bənzəyir. Püskürtmə gücü bir çox əzələ ilə əhatə olunmuş qıf formasındakı ağızlığın ildırım sürəti ilə örtülməsi ilə meydana gəlir. Püskürtmə ağızlığı vasitəsilə başıayaqlılar istədikləri vaxt geriyə doğru üzür, ani manevrlər edir və qövsvarı üzürlər.



Kolorado Universiteti Kosmik Mühəndislik fakültəsindən dosent Kamran Mohseni molyuskların suyun altında hərəkət etmək üçün istifadə etdiyi su püskürtmə sistemindən ilham alaraq yeni generatorlar icad edib. Bu generatorlar dənizaltı nəqliyyat vasitələrinin daha yavaş sürətlə daha həssas manevr etməsinə imkan verir.

Xüsusilə çətin şəraitdə dəniz altında istifadə olunan nəqliyyat vasitələrinin təhlükəsiz manevr xüsusiyyəti olmalıdır. Bu mexanizmə malik insan daşıyan və daşımayan dənizaltı nəqliyyat va-

sitələri okeanın dibindəki vulkanlardan qütb bölgələrində buz yığınlarının altındakı soyuq dərinliklərə qədər dünyanın hər tərəfindəki ekosistemlərin tədqiq olunmasını mümkün edəcək. Hal-hazırda, istifadə olunan vasitələrin hidrodinamik cəhətdən sürətləri azdır və dar sahələrdə manevr etmələrini, bir bölgəyə yanaşmalarını və açıq sahələrdə asılı vəziyyətdə dayanmalarını çətinləşdirir. Ona görə də bu vasitələrin sürətləri həddindən artıq azdır.

Allah bizə açıq-aydın varlığının və üstün gücünün, qüdrətinin dəlillərini sonsuz elmi və ağlı ilə göstərir. Bir ayədə Allah belə buyurur:

***Göylərdə və yerdə nə varsa, Onundur. Həqiqətən, Allah ehtiyacsızdır, şükürə, tərifə layiqdir! (Həcc surəsi, 64)***



## Omarın iybilmə mexanizmi

Suda yaşayan omar və xərçəng kimi canlılar uyğun qarşı cins və ya qida tapmaq, yaxud yırtıcılardan qaçmaq üçün iybilmə hisslərindən istifadə edirlər. Kaliforniya Berkli və Stenford Universitetlərindən olan tədqiqatçılar omarların ətraf mühiti necə qoxuladıqlarını tədqiqatlarla aşkar ediblər.

Omarların çox həssas iybilmə duyğusu var. Bu duyğu qoxu senzorları düzəltməyə çalışan robot mühəndislərinə ilham mənbəyi ola bilər. Kaliforniya Berkli Universitetində biologiya professoru və "College of Letters & Science" jurnalının baş jurnalisti olan Mimi A.R. Kohl bu mövzu ilə əlaqədar belə deyir:

"Əgər dalğıcları göndərmək istəmədiyiniz zəhərli bölgələrə insansız nəqliyyat vasitələri göndərmək istəyirsinizsə və ya robotlar düzəldib bunların iybilmə ilə istiqaməti müəyyən etməsini istəyirsinizsə, bunun üçün burun və ya iy bilən antenalar düzəltməlisiniz".

(http://www.berkeley.edu/news/media/releases/2001/11/30_lobst.html)



## Köpək balığı dərisindən nümunə götürülərək hazırlanan çimərlik paltarları və suyun səth müqaviməti

Olimpiada yarışlarında yarışçılar üçün suyun bədənlərinə sürtünmə müqaviməti olduqca əhəmiyyətlidir. Bu səbəbdən, bir çox üzgüçü sürtünmə müqavimətini ən aşağı səviyyəyə endirən yeni çimərlik paltarlarına üstünlük verirlər. Bu çimərlik paltarları üzgüçünün bədəninə çox sıx yapışır. Çimərlik paltarının parçası şaquli qatran zolaqları üstündə köpək balığı dərisinin xüsusiyyətlərini daşıyan toxumadan ibarətdir.

Köpək balıqları üzərində elektron mikroskopu ilə aparılan tədqiqatlarda balığın dərisində zolaqlar olduğu müşahidə edilmişdir. Zolaqlar şaquli su girdabları, yaxud su

spiralları əmələ gətirərək suyu balığın bədəninə daha çox yapışdırır və suyun üzməyə qarşı müqavimətini azaldır. Zolaqların bu təsiri “Riblet təsiri” adlanır və bu mövzu ilə bağlı NASA-nın Lenqli Tədqiqat Mərkəzində Riblet dəri tədqiqatları aparılır. Son on ildir ki, Riblet təsiri çimərlik paltarlarına tətbiq edilir.

Yeni liflər və yeni toxuma texnikaları ilə hazırlanan çimərlik paltarları üzgüçünün bədənini örtərək suya ən az müqavimət göstərəcək şəkildə hazırlanır. Tədqiqatlar bu çimərlik paltarlarının digərlərinə nisbətən sürtünmə müqavimətini 8% azaltdığını göstərib.

## Kirliliyə qarşı balıq detektoru



Qərbi Afrika fil balığı (Gnathonemus petersii) Afrikanın 27ºC-lik isti lilli sularında yaşayır. Vətəni Nigeriya olan 10 sm uzunluğundakı bu balıq lilli sularda gözlərindən az istifadə edir. Quyruq tərəfindəki əzələlərindən müntəzəm yaydığı elektrik impulsları ilə yolunu tapır. Dəqiqədə 300-500 impuls yayır. Lakin suyun kirlilik dərəcəsi artdıqca balığın dəqiqədə yaydığı impulsların sayı 1000-dən çox olur.

İngiltərənin Burmaunt şəhərində kirliliyi ölçmək üçün fil balıqlarından faydalanaraq icad edilən detektorlardan istifadə edilir. Burmauntdakı bir su şirkəti Stor çayından götürdüyü su nümunələrini 20 fil balığı ilə yoxlayır. Hər balıq çaydan gələn su ilə doldurulmuş akvariuma yerləşdirilib. Akvariumlardakı reseptorlar impulsları qəbul edib kompyuterə ötürür. Əgər su kirlidirsə, balığın artan impulsları müəyyən edilərək kompyuter vasitəsilə siqnal verilir.

Cisimlərin yerini təyin edərkən fil balığının beyninin iş prinsipi insan beyninin məsafəni hesablama prinsipinə bənzəyir. İnsan məsafəni səs dalğaları arasındakı məsafəyə və dalğaların cisimdən qulağa çatana qədər keçən müddətə əsasən müəyyən edir. Bu hesablama saniyənin 15.000-də biri qədər müddətdə edilir. Ancaq Kaliforniya Universitetindən tədqiqatçı G. Rouz (G. Rose) və Heylinqenberq (Heilingenberg) balığın bu hesablamanı saniyənin 400 milyardda biri qədər qısa müddətdə etdiyini aşkar edib. Rouz üstün qüvvət sahibi Rəbbimizin yaratdığı balığın kiçik, sadə görünməsinə baxmayaraq, əslində, içində super kompyuterlərin mexanizmi yerləşdirilmiş möcüzə balıq olduğunu qeyd edib.

## Elektrikli ilan balığından müdafiə və rabitə texnologiyasına

Boyu 2 metrə çatan bu balığın gövdəsinin üçdə ikisi elektrik hasil edən üzvi lövhələrlə örtülüdür. Balıq sayı 5000-6000 olan bu lövhələr sayəsində 550 volt, 2 amperlik elektrik hasil edir. Balıqdan yayılan elektrikin şok təsiri balıqdan 2 m məsafədəki canlıları belə öldürür. Balığın bu qədər güclü enerjiyə malik olması, həqiqətən, böyük yaradılış möcüzəsidir. Sistem çox mürəkkəbdir və mərhələ-mərhələ əmələ gəlməsi qeyri-mümkündür. Çünki balığın elektrik sistemi tam işləməsə, ona heç bir fayda verməz.



Başqa sözlə, bu sistemin hər hissəsi eyni anda qüsursuz şəkildə yaradılıb. Elm adamları elektrikli ilan balığının müdafiə mexanizmini təqlid edir və dövrümüzdə bu balığın müdafiə mexanizminə bənzər elektrikli müdafiə silahlarından istifadə edilir.

Elektrik impulslarından bir cismin yerini müəyyən etmək və yaxud rabitə məqsədilə istifadə edilir. Ancaq bunun üçün elmi təcrübə və qabaqcıl texnologiya tələb olunur. Dövrümüzdə belə bu səviyyəyə çatmış ölkələr azdır. Halbuki, bəzi elektrikli balıqların orqanizmində ətrafa müntəzəm elektrik impulsları yayan və göndərdiyi impulsların toxunduğu cisimləri şərh edən üzvi radar var. Balıq bu radar vasitəsilə ətrafındakı cisimlərin ölçüsü, keçiriciliyi və hərəkəti haqqında məlumat əldə edir. Bundan əlavə, eyni sistemlə qarşısındakı başqa elektrikli balığın cinsiyyəti və yaşı haqqında məlumat alır və ya onu qorxudur. İnsanların istifadə etdiyi radarların və rabitə sistemlərinin nə qədər kompleks cihazlar olduğunu nəzərə alsaq, balığın orqanizmindəki möcüzəvi yaradılışı daha yaxşı qavrayarıq.



Unutmaq olmaz ki, təbiətdəki mükəmməl yaradılış xüsusiyyətləri Rəbbimizin bizə verdiyi çox böyük nemətlərdir. Bu yaradılış xüsusiyyətlərini təqlid etmək, nümunə götürmək isə insanı daima doğruya yönəldir. Elm dünyası təbiətdəki yaradılış xüsusiyyətlərinin böyük mənbə olduğunu və gündəlik həyata tətbiq edilməsinin faydasını son bir neçə ildə anlayıb. Şübhəsiz ki, bu mənbədən doğru istifadə etmək və texnologiyaya tətbiq etmək inkişafı sürətləndirər.

Bu bənzərsiz və mükəmməl yaradılışa bir çox Quran ayəsində diqqət çəkilir. Allah bənzərsiz yaratmasının nəticəsi olaraq insanlara verdiyi nemətlərin saysız-hesabsız olduğunu bir ayədə belə bildirir:

***Əgər Allah`ın nemətlərini saymalı olsanız, onları sayıb qurtara bilməzsiniz. Həqiqətən, Allah bağışlayandır, rəhmlidir. (Nəhl surəsi, 18)***

Düşünən İnsan, Aprel 2014

# Avropanın böyük ehtiyacı: DƏRİN MƏNƏVİYYAT

Ötən həftələrdə Danimarkada bir zürafə zooparkda yer olmadığına görə insanların gözləri qarşısında kəsildi. Heyvan haqqları təşkilatları bu planı dayandırmaq üçün cəhd etmiş, etiraz aksiyaları keçirmiş, bir çox ölkədən zürafəni almaq üçün təkliflər gəlmişdi. Amma zürafənin öldürülməsinə mane ola bilməmişdilər.

Dünyada hər gün minlərlə insan dəhşətverici üsullarla qətl edilərkən bir zürafənin bu qədər çox gündəmdə olmasına mənfi reaksiya verənlər ola bilər. Lakin bir məqama fikir vermək lazımdır ki, bu hadisə sadəcə bir heyvan cinayəti deyil. Olduqca sevimli bir zürafə olan 18 aylıq Marius onlarla kiçik uşağın gözləri önündə kəsildi.

Cinayətin uşaqların gözünün qabağında törədilmə səbəbini Bengt Holst belə açıqladı: “Bu, uşaqların heyvanlar haqqındakı məlumatlarını artıracaq, eyni zamanda həyat və ölüm haqqındakı məlumatlarını da.”

Buradakı məntiqin yanlışlığına keçməzdən əvvəl Danimarka haqqında bir az məlumat verək. Danimarka, insanları gözəl, şəhərləri gözəl, müasirliyi sevən Avropa ölkəsi, Skandinaviyanın önəmli təmsilçidir. Lakin Danimarka, xüsusilə Şimali Avropa ölkələrinin etdiyi mühüm səhvi uzun illərdir ki, təkrarlayır. Bu ölkələrdə əsasən sevgi, yaradılış, həyat və ölüm kimi məfhumlar açıqlanarkən, mənəviyyat bir kənara atılır və hər şey dünyəvi səbəb-nəticə əlaqələri ilə açıqlanmağa çalışılır. Materializm bu ölkədə hər şeyə tətbiq olunmağa cəhd edilir.

Danimarka bu dünyagörüşün məktəblərdə təhsil şəklində verildiyi ölkələrdən biridir. Belə ki, buna görə dinsizlik nisbəti – ötən illərlə müqayisədə artsa da - ən çox İsveç, Norveç, Danimarka, İslandiya kimi Skandinaviya ölkələrində müşahidə edilir. Bununla yanaşı, içki və narkotik maddə istehlakındakı artım, degenerasiya, yaşlıların baxımının ailə fərdlərindən deyil, dövlətdən gözlənilməsi, ailə münasibətlərinin zəifləməsi və insanların yaşadığı tənhalıq və boşluq bu ölkələrin ən böyük problemlərindəndir. Skandinaviya həmçinin intiharların ən yüksək olduğu ölkələrdən ibarətdir. Bu ölkələrin hər birində sırf alkoqol istifadəsi səbəbindən ildə 7000 insan həyatını itirir. Mənəviyyatın get-gedə unutdurulduğu bir ərazidə yaşanan bu boşluq isə gün keçdikcə artır.

Məhz zürafə Mariusu uşaqların gözləri qarşısında kəsib, onlara dərs verməyi düşünən zehniyyət bu dünyagörüşün bir hissəsidir. Düşünün, bir uşaq əgər Allah’ı tanımırsa, dünya və axirət haqqında heç bir məlumatı yoxdursa, heç bir mənəvi təhsil almayıbsa, bu dünyada zamanla çürüyən, yaşlanan bədənlərin varlığının hikməti ona göstərilməyibsə, önündə kəsilən bir heyvandan necə həyat və ölüm dərsi ala bilər? Sevimli bir zürafənin mənasız səbəbdən göz qabağında kəsilərək öldürülməsi ilə uşağın ölüm haqqında öyrənəcəyi şeylər yalnız qan, vəhşilik və dəhşətdən ibarət olacaq. Məktəbdə özünə öyrədilən yanlış materialist təlimin tətbiq edilməsini görmüş olacaq və güclünün zəifi əzdiyi bir sistemin həyatın hər sahəsində tətbiq edildiyini düşünə-





Düşünən İnsan, Aprel 2014

cək. Həyatı mənasız, ölümü də bəsit görməyə başlayacaq, gözündə şiddət və ölüm asanlaşacaq.

Bu da bir həqiqətdir ki, heyvanlar arasında güclünün zəifi əzdiyi hallar olur əlbəttə. Lakin heyvanlar arasında fədakarlıq hissi daha da güclüdür. Heyvan növləri öz balaları, öz cəmiyyətləri, hətta başqa növlərin balaları üçün özlərini fəda etməkdən çəkinməzlər. Dolayısilə güclünün zəifi əzməsi zənn edildiyi kimi təbiət qanunu deyil. Bundan əlavə, insan ağıllı və xüsusi yaradılmış ruh sahibi varlıq olaraq özündən əvvəl başqalarını öndə tutmaqla, əleyhinə belə olsa haqqın tərəfini saxlamaqla məsuldur. Dolayısilə bir insan üçün bu dünya müharibə yeri deyil, gözəl əxlaqa görə üstünlüyə sahib olacağı imtahan yeridir.

Bir uşaq ancaq bu dünyanın xüsusi imtahan yeri olaraq yaradıldığını, əsl həyatın axirət olduğunu, burada etdiyi hər davranışdan axirətdə məsul tutulacağını və ölümün də yox olma deyil, sonsuz həyatın başlanğıcı olduğunu qavradıqda həyatı və ölümü dərk edə bilər.

Bunu izah etmək üçün uşağın gözləri qarşısında qanlar içində bir vəhşilik tablosu deyil, ona özünü yaradan uca Yaradıcının, Allah'ın varlığının izah olunması lazımdır.

Dünyadakı vəhşiliyin bir qismi materialist dünyagörüşün gətirdiyi təxribatdan, həyatın mənasız, ölümün də sadə və adi qarşılanmasından qaynaqlanır. Bəzi Avropa ölkələri uşaqlara bu anlayışı təhsil vasitəsilə təlqin edərək böyük bir fəlakətin içinə sürüklənirlər. Skandinaviya ölkələrində də intihar nisbətlərinin yüksək olmasının səbəbi bu yanlış dünyagörüşdür. Bu bir həqiqətdir ki, həyatın əsl qayəsini anlayan bir insan zirzəmidə belə yaşasa, xoşbəxt olar.

Marius bu zehniyəti izah etmək üçün verdiyimiz kiçik bir nümunədir sadəcə. Burada diqqət çəkmək istədiyimiz mühüm həqiqət səthi bir dünyagörüşün gözəl cəmiyyətləri fəlakətə, sevgi dolu cəmiyyətləri sevgisizliyə və ruhsuzluğa doğru sürükləməsidir. Buna mane olmaq üçün xüsusilə həmin cəmiyyətlərdə gerçək elmi təhsil və mənəviyyat duyğusunun verilməsi zəruridir.

O zaman Danimarka kimi gözəl ölkələrdə narkotik maddə və içki istehsalını azaltmaq üçün xüsusi reabilitasiya xidmətlərinə, intiharlara mane olmaq üçün süni günəşlərə, əxlaqi çöküntüləri və psixoloji pozuqluqları cilovlamaq üçün qadağalara ehtiyac olmaz. Uşaqlar ölümü bir vəhşilik deyil, özlərini Yaradana qovuşma anı olaraq görərlər. Qəzəb deyil, sevgi cəmiyyətləri yaranar. Bunu təmin etmək istəyiriksə, mütləq materialist zehniyyətin yanlışlığını göstərəcək şəkildə doğru məlumatların verilməsi, gerçək təhsil və mənəviyyatın gücləndirilməsi yeganə həll yoludur.





# ÇƏTİNLİK ZAMANI EDİLƏN FƏDAKARLIQ İLƏ RAHATLIQ VAXTI EDİLƏNLƏRİN DƏYƏRİ ALLAH QATINDA EYNİ OLMAYA BİLƏR

Çətinliklər və sıxıntılar münafiq xarakterli insanlarla səmimi möminləri ayırd edən mühüm imtahan vəsiləsidir. Quranın bir çox ayəsində rahatlıq zamanı möminlərlə birlikdə hərəkət edən, mömin əxlaqına bənzər davranan, çətinliklə qarşılaşdıqda isə fərqli davranan insanlar haqqında məlumat verilir. Bir çox insan rahatlıq vaxtı bəzi çətinliklərə tab gətirir, ancaq çətinlik zamanı bu əxlaqla davranmır. Ancaq güclü imanı olanlar, nə olur-olsun, təvəkkül edir, Allah`a bağlılıqda qətiyyətli davranır, qarşılaşdığı çətinliklərin öhdəsindən gəlmək üçün cəhd göstərirlər.

Bəzi insanlar bu həqiqətə etinasız yanaşırlar, rahatlıq vaxtı etdikləri yaxşılıqları kafi hesab edirlər. Çətinliklə qarşılaşdıqda isə vaxtı ilə etdikləri yaxşılıqları irəli sürərək fədakarlıq etməkdən qaçırlar. Bundan əlavə, bunları dəlil göstərərək Quranda bildirildiyi kimi fədakar olduqlarını iddia edirlər. Bu əxlaqa malik insanlar özləri sıxıntı içində ikən başqalarının problemləri ilə məşğul olmaq üçün vicdanən məsul olmadıqlarını deyir və “başqaları etsin” məntiqi ilə məsuliyyətdən qaçırlar.

Halbuki, bu düşüncə tərzi Quran əxlaqına qətiyyən uyğun deyil. Allah insanları həyatlarının hər anında gözəl əxlaqla yaşamaqla məsul etmişdir. Bu səbəbdən, hər insan səbirdə, təvəkküldə, səmimiyyətdə, dürüstlükdə, vəfa və sədaqətdə olduğu kimi, fədakarlıqda da ömür boyu qətiyyətli davranmaqla məsuldur. Allah insanın bu məsuliyyətini ***“Mal-dövlət, oğul-uşaq bu dünyanın bər-bəzəyidir. Əbədi qalan yaxşı əməllər isə Rəbbinin yanında həm savab, həm də ümid etibarilə daha xeyirlidir! (Kəhf surəsi, 46)*** ayəsi ilə xəbər vermişdir. Öz mənfəətinə zidd olan, hətta özünü təhlükəyə atan, zəhmət və səbir tələb

edən hadisələrdə belə insanın könüldən fədakarlıq etməsi Quran ayələrində tərif olunan fədakarlıqdır.

Quranda iman gətirənlərin çətinlik dövrlərində etdiyi fədakarlıqlarla rifah və əmin-amanlıq dövründə etdikləri fədakarlığın eyni olmayacağına diqqət çəkilir. Ehtiyac içində ikən, çətinlik zamanı malını Allah yolunda sərf edən, Allah rizası üçün çalışan insan Allah dərgahında dərəcə baxımından daha üstün tutulur. Quranda bu, belə bildirilir:

***Sizə nə olub ki, Allah yolunda xərcləmirsiniz? Halbuki, göylərin və yerin mirası ancaq Allah`ındır. Sizlərdən fəthdən əvvəl sərf edənlər və vuruşanlar eyni deyillər. Onlar fəthdən sonra sərf edib döyüşənlərdən dərəcə etibarilə daha üstündürlər. Bununla belə, Allah onların hamısına ən gözəl mükafat vəd buyurmuşdur. Allah sizin nə etdiklərinizdən xəbərdardır! (Hədid surəsi, 10)***

Başqa bir ayədə isə Allah ***“Əgər o, asan əldə edilən mənfəət və orta bir səfər olsaydı, onlar mütləq sənin ardınca gedərdilər...” (Tövbə surəsi, 42)*** sözləri ilə zəif imanlı kəslərin çətinlik zamanı fədakarlıqdan qaçmasının əsl səbəbini bildirmişdir. Asanlıq, rahatlıq və rifah içində olduqda əməlisaleh möminlərlə birlikdə hərəkət edən bu möminlər çətinliklərlə qarşılaşdıqda geri çəkilirlər.

Əməlisaleh möminlər isə özləri sıxıntı çəksələr də, Allah qorxusu və səmimi imanlarına görə böyük əzm, qətiyyət və cəsarətlə fədakarlıq edirlər. Möminin Allah`ın rizasını qazanmaq üçün şövqlü və əzmli olması çətinlik və sıxıntılarına baxışını da kökündən dəyişdirir. Çətinlik kimi görünən hər cür hadisə iman gözü ilə baxdıqda mömin üçün asanlaşır. İman gətirənlər Allah`ın səmimi möminlərə, Quran əxlaqı ilə yaşamaqda qətiyyətli olanlara, Allah`ın rizasını hər cür dünyəvi mənfəətdən üstün tutanlara mütləq kömək edəcəyini bilərək Allah`a təvəkkül edirlər.

Bu həqiqəti dərk edən möminlər çətinlik zamanı fədakarlıq etməyi, məsuliyyəti öz üzərinə götürməyi tələb etməlidirlər. Allah kimlərin bu məsuliyyəti daşıdığını Quranın “Allah`a və Onun Peyğəmbərinə sadiq qalmaq şərti ilə acizlərə, xəstələrə və sərf etməyə bir şey tapa bilməyənlərə heç bir günah yoxdur. Yaxşı işlər görənləri də məzəmmət etməyə

heç bir əsas yoxdur. Allah bağışlayandır, rəhm edəndir!" (Tövbə surəsi, 91) ayəsi ilə bildirmişdir. Allah`dan qorxan vicdanlı insanın bu həqiqətləri bilərək məsuliyyətdən boyun qaçırması, öz mənfəətinin ardınca getməsi heç bir bəhanə ilə açıqlana bilməz. Allah bu cür insanların bəhanə və üzrünün əsaslı olmadığını Quranda Peyğəmbərimizin (s.ə.v) dövründən bir nümunə ilə belə xəbər verir:

***Ancaq varlı olduqları halda, səndən izin istəyənlər məzəmmətə layiqdirlər. Onlar arxada qalanlarla bir yerdə qalmağa razı oldular. Allah onların ürəklərini möhürləmişdir. Buna görə də onlar bilməzlər! (Tövbə surəsi, 93)***

***Yanlarına qayıtdığınız zaman onlar sizdən üzr istəyərlər. Belə de: "Üzr istəməyin, onsuz da sizə inanmayacağıq. Allah əhvalınızdan bizi xəbərdar etmişdir. Əməlinizi Allah da görəcək, Onun Peyğəmbəri də". Sonra qeybi və aşkarı bilənin hüzuruna qaytarılacaqsınız, O da sizə nə etdiklərinizi xəbər verəcəkdir! (Tövbə surəsi, 94)***

Bu insanlar ətraflarındakıları davranışlarının doğru olduğuna inandırmağa çalışaraq vicdanlarını rahatlatmaq istəyirlər. Bəzən ailə, bəzən də işlə bağlı məsuliyyətlərini bəhanə gətirərək fədakarlıq etməmələrinin kökündə zəruri səbəb olduğunu göstərmək istəyirlər. Halbuki, bütün bunların əsassız olduğunu özləri də bilirlər. Dünya həyatındakı hər şeyin fani olduğunu, əzəli, əbədi varlığın ancaq Allah olduğunu və hər şeyin sonda Rəbbimizə qayıdacağını dərk edirlər. "Sizdən əvvəl kimlər gəlib-gedibsə, onları da bilirik, sizdən sonra kimlər gələcəksə, onları da!" (Hicr surəsi, 24) ayəsi ilə bildirildiyi kimi, Rəbbimiz bu insanların əsl niyyətini bilir. Buna baxmayaraq, Allah`ın rizasını qazanmaq əvəzinə nəfslərini razı salmaq istəyirlər. Bu insanlar öz mənfəətlərini güdməyin lehlərində olduğunu düşünərək yanılırlar. Çünki Allah`ın rizasına uyğun hərəkət etmək insanın lehinədir. Onu qoruyan, nemət verən, təhlükəsizliyini, rahatlığını təmin edən ancaq aləmlərin Rəbbi olan Allah`dır.

Unutmaq olmaz ki, eqoistlik iman gətirən insanı axirətdə olduğu kimi dünya həyatında da alçaldar. Allah Peyğəmbərimizə (s.ə.v) malları və canları ilə fədakarlıq etməkdən qaçan insanlara belə deməyi vəhy etmişdir:

*Əgər Allah səni onlardan bir zümrənin yanına göndərsə və onlar (döyüşə) çıxmaq üçün səndən izn istəsələr, de: "Siz bir daha mənimlə (döyüşə) çıxmayacaq və mənimlə birlikdə heç bir düşmənlə vuruşmayacaqsınız. Çünki siz birinci dəfə oturmağa razı oldunuz. Elə isə arxada qalanlarla bərabər, siz də (evdə) oturun!" (Tövbə surəsi, 83)*

Çətinliklə qarşılaşdıqda geri çəkilmək, öz mənfəətini Allah`ın rizasından üstün tutmaq müsəlmana axirətdə böyük peşmançılıq gətirər. İmanlı insanın bütün bu həqiqətləri düşünərək əlindən gəldiyi qədər Quran əxlaqı ilə yaşaması əbədiyyən peşmançılıq çəkməsinin qarşısını alar.

**Yanlarına qayıtdığınız zaman onlar sizdən üzr istəyərlər. Belə de: "Üzr istəməyin, onsuz da sizə inanmayacağıq. Allah əhvalınızdan bizi xəbərdar etmişdir. Əməlinizi Allah da görəcək, Onun Peyğəmbəri də". Sonra qeybi və aşkarı bilənin hüzuruna qaytarılacaqsınız. O da sizə nə etdiklərinizi xəbər verəcəkdir! (Tövbə surəsi, 94)**

# TƏKAMÜL SEHRBAZLIĞI: ELMİ DƏLİLİ OLMAYAN NƏZƏRİYYƏNİ ELM KİMİ GÖSTƏRMƏK

Elm təcrübi metodlara və reallığa əsaslanaraq qanunlar çıxarmağa çalışır. Ancaq dövrümüzdə təkamül nəzəriyyəsi elmin bu tərifindən tamamilə uzaqlaşaraq sanki sehrbaz oyunları ilə ayaqda tutulmağa çalışılır. Başqa sözlə, olmayan şey müxtəlif hiylələr və illüziya oyunları ilə insana reallıq kimi hiss etdirilir. Təbiət və canlılar aləmi haqqında həvəskar səviyyəsində məlumatı olan və heç vaxt ciddi biologiya təhsili almamış Darvin bu sahədə ilk sehrbaz olub. Darvin 1859-cu ildə heç bir elmi kəşf və ya təcrübəyə əsaslanmayan fərziyyələrdən ibarət "Növlərin mənşəyi" kitabını nəşr etdirdi. Bu kitaba əsasən, təkamül nəzəriyyəsi canlıların yaradıldığını inkar edir və təbii proseslərin və təsadüfi amillərin təsiri ilə törədiyini iddia edirdi. Həmin nəzəriyyəyə görə bütün canlılar bir-birindən törəyib. Darvin nəzəriyyəsini irəli sürərkən onu dəstəkləyən elmi dəlillərin gələcəkdə kəşf ediləcəyinə ümid bəsləyirdi. Lakin gələcəkdə də təkamül nəzəriyyəsinin heç bir iddiası təsdiqlənmədi. Əksinə, təkamülün əsassızlığı və canlıların mənşəyinin yeganə açıqlamasının YARADILIŞ olduğu XXI əsrin elmi ilə sübut edildi.



## Təkamülçülər elmi məqalənin içinə yanlış fikirlərini yeridirlər

Nəzəriyyələrini elmi dəlillər və təcrübələrlə sübut edə bilməyən təkamülçülər təkamül nəzəriyyəsi ilə bağlı izahlarını canlılar haqqında elmi açıqlamaların arasına qarışdırmağa başladılar.

Hər hansı elmi məqaləyə baxdıqda ilk bir neçə abzasda canlılar haqqında düzgün məlumat ala bilərsiniz. Ancaq növbəti sətirlərdə birdən-birə məqalə ilə heç bir əlaqəsi olmayan, məntiqdən kənar açıqlamalara rast gələcəksiniz. Aralara yeridilmiş bu fantastik açıqlamalar darvinistlərin təkamül nəzəriyyəsini hər hansı yolla qəbul etdirmək cəhdləridir.

Darvinistlər bəzi elmi terminlərin mənalarını təhrif edərək sanki təkamül nəzəriyyəsi ilə əlaqəsi varmış kimi göstərirlər. Bunu insanlara o qədər sıx təlqin edirlər ki, məsələn, adaptasiya, variasiya, təbii seçmə, mutasiya kimi terminləri eşidən insanlar birbaşa təkamüldən bəhs edildiyini zənn edir və təkamülü elmin labüd hissəsi hesab edərək yanılırlar. Halbuki, bu terminlər canlıların həyatında yer tutsa da, təkamül nəzəriyyəsi ilə heç bir əlaqəsi yoxdur. Bir-bir açıqlayaq:

Təkamül nəzəriyyəsi kommunist ideologiyanın əsaslandığı materializmin elmi əsasını təşkil edir. Belə ki, kommunizmin banisi olan Karl Marks, Çarlz Darvinin yazdığı və təkamül nəzəriyyəsinin əsasını təşkil edən "Növlərin mənşəyi" kitabı haqqında: "Bizim fikirlərimizin təbii tarixi təməlini təşkil edən kitab məhz budur", - deyib (David Jorafsky, Soviet Marxism, Natural Science, səh. 12). Məlum olduğu kimi, kommunizm din, dövlət, ailə kimi müqəddəs məfhumları kökündən məhv etməyi hədəf alan, dövlətin vahid quruluşuna qarşı yönəldilən hər cür separatçı hərəkat və düşüncənin təməl ideologiyasıdır.

### Təkamülçülər "adaptasiya" terminini necə dəyişdirirlər?



Adaptasiya bir canlının olduğu mühitin dəyişən şərtlərinə daha yaxşı uyğunlaşmasını və çoxalmasını təmin edən xüsusiyyətidir.

Eyni növə aid iki canlı ölçüsü, rəngi, xassəsi kimi fərqli xüsusiyyətlərinə əsasən, ya olduqları mühitə daha yaxşı uyğunlaşır və daha uzun yaşayıb daha çox arta bilirlər, ya da dəyişən şərtlərə tab gətirmir və ölürlər. Bu, təbii seçmə adlanır.

Ancaq təkamül nəzəriyyəsi adaptasiya termininə yeni don geyindirərək yaşadığı şəraitə uyğunlaşan canlıların zaman ərzində başqa növə çevrildiyini iddia edir.

Təkamülçülərin "ətraf mühit şərtlərində dəyişiklik canlıların təkamül keçirərək başqa növə çevrilməsinə səbəb olur" şəklində iddiaları əsassızdır. Bir növ genetik potensialı imkan verdiyi ölçüdə yaşadığı mühitin dəyişikliklərinə uyğunlaşa bilər. Əgər genetik potensialı bu dəyişikliklərə uyğunlaşmasına imkan vermirsə, onda bu növ dəyişən şəraitə uyğunlaşa bilmir və məhv olur. Ancaq heç vaxt şəraitə uyğunlaşaraq başqa növə çevrilmir, eyni növün fərdi kimi qalır. Yəni bir ceyran sürətlə qaça bilirsə, həyatda qalar, ancaq daha sürətlə qaçan heparda çevrilməz.

**Variasiya əsla təkamülə dəlil deyil, çünki variasiya mövcud genetik informasiyanın müxtəlif formalarda üzə çıxmasıdır. Genetik informasiyaya əsla yeni xüsusiyyət qazandırmır. Variasiya (müxtəlifləşmə) həmişə genetik informasiya çərçivəsində baş verir.**

### Təkamülçülər "variasiya" terminini necə dəyişdirirlər?

Variasiya da təkamül nəzəriyyəsi ilə əlaqədar termin kimi göstərilsə də, əslində, bir növün başqa növə çevrilməsinə səbəb olmur.

Variasiya "müxtəlifləşmə" mənasını verən genetik hadisədir. Bu hadisə bir canlı növü daxilindəki fərdlərin və ya qrupların bir-birlərindən fərqli xüsusiyyətlər qazanmasına səbəb olur. Məsələn, yer üzündəki insanların hamısının genetik informasiyası, əslində, eynidir. Ancaq genetik informasiya hər insanda variasiya potensialı sayəsində müxtəlif şəkildə üzə çıxır. Məsələn, insanların bəzisinin gözləri qıyıqdır, bəziləri qızıl saçlıdır, bəziləri zəncidir, bəzilərinin burnu uzun, bəzilərinin boyu qısadır.

Ancaq variasiya əsla təkamülə dəlil deyil, çünki variasiya mövcud genetik informasiyanın müxtəlif formalarda üzə çıxmasıdır. Genetik informasiyaya əsla yeni xüsusiyyət qazandırmır.



Variasiya (müxtəlifləşmə) həmişə genetik informasiya çərçivəsində baş verir.

Səhləb çiçəyinin 20.000 növü var. Hamısının genetik informasiyası eyni olsa da, variasiya potensialı sayəsində 20.000 müxtəlif səhləb çiçəyi var. Ancaq səhləb çiçəkləri əsla palıda çevrilməzlər. Yəni variasiyalar genetik informasiya imkan verdiyi çərçivədə baş verir.

## Genetik dəyişməzlik prinsipi təkamülçüləri çıxılmaz vəziyyətdə qoyur

Genetik dəyişməzlik (genetic homeostasis) prinsipi bir canlı növünü dəyişdirmək üçün edilən bütün cütləşdirmə (müxtəlif variasiya əmələ gətirmə) səylərinin nəticəsiz qaldığını, canlı növləri arasında keçilməz sədd olduğunu göstərir.

Yəni müxtəlif inək variasiyalarını cütləşdirən heyvandarların, nəticədə, inəkləri Darvinin iddia etdiyi kimi başqa növə çevirmələri qətiyyən mümkün deyil.

"Darwin Retried: An Appeal to Reason" (Darvin yenidən sorğulandı: ağıla müraciət) adlı kitabı ilə darvinizmin əsassızlığını ortaya qoyan Norman Maqbet (Norman Macbeth) belə yazır:

"Problem bundan ibarətdir: canlılar, həqiqətən, hüdudsuz şəkildə müxtəlifləşə bilərmi? Növlər həmişə sabitdir. Heyvandarların və botaniklərin yetişdirdiyi müxtəlif bitki və heyvan cinslərinin müəyyən həddən sonra irəli getmədiyini, hətta orijinal formalarına geri qayıtdığını bilirik..." (Norman Macbeth, Darwin Retried: An Appeal to Reason, Harvard Common Press, New York, 1971, səh. 33)

Beləliklə, variasiyalar bir növün genetik hüdudları çərçivəsində bəzi məhdud dəyişikliklərə səbəb olur. Yer üzündə müxtəlif irqlərdən olan insanların olması və ya ata-ana və uşaqlar arasındakı fərqlər variasiyalardır. Ancaq variasiyada əsla genetik informasiyaya yeni məlumat əlavə edilməz.

**Genetik dəyişməzlik (genetic homeostasis) prinsipi bir canlı növünü dəyişdirmək üçün edilən bütün cütləşdirmə (müxtəlif variasiya əmələ gətirmə) səylərinin nəticəsiz qaldığını, canlı növləri arasında keçilməz sədd olduğunu göstərir.**
**Yəni müxtəlif inək variasiyalarını cütləşdirən heyvandarların, nəticədə, inəkləri Darvinin iddia etdiyi kimi başqa növə çevirmələri qətiyyən mümkün deyil.**

## Təbii seçmə mexanizmi qarşısında təkamülçülərin çarəsizliyi



Təbii seçmə təbiətdə mövcud olan həyat uğrunda mübarizə nəticəsində güclülərin həyatda qalması deməkdir. Məsələn, yırtıcı heyvanların hücum etdiyi maral sürüsündə təbii olaraq sürətlə qaçan marallar həyatda qalar. Bir müddət sonra bu maral sürüsü ancaq sürətlə qaçan marallardan ibarət olar.

Ancaq marallar bu yolla əsla başqa canlı növünə çevrilməz. Maralların genetik informasiyasına hər hansı məlumat əlavə edilmir və növ dəyişikliyi baş vermir. Marallar nə qədər təbii seçməyə məruz qalsalar da, maral olaraq qalırlar.

Bu misal bütün canlı növlərinə aiddir. Təbii seçmə sadəcə ətraf mühit şərtlərinə uyğunlaşmayan zəif, gücsüz canlıların aradan çıxmasına səbəb olur, ancaq yeni genetik informasiya və ya yeni orqanlar, yəni yeni canlı növləri meydana gətirmir. Yəni təbii seçmə nəticəsində canlılar təkamül keçirmir. Darvin "Növlərin mənşəyi" kitabının 127-ci səhifəsində bu faktı: "Faydalı dəyişikliklər meydana gəlmədikcə təbii seçmə heç nə edə bilməz", - deyərək qəbul edib.

Təkamülçü Lorinq Breys (C. Loring Brace) "American Scientist" jurnalında dərc olunmuş məqaləsində təbii seçmənin növləri əmələ gətirən mexanizm olmadığını və darvinizmin elmi kəşflərlə təkzib olunduğunu belə açıqlayır:

"American Scientist" oxucuları biologiyanın böyük hissəsinin və paleontologiyanın tamamilə Darvinin üzvi təkamül haqqında fikirlərini təkzib etdiyini dərk etməyə bilərlər. Adaptasiya isə praktikada əsla keçərli deyil". (C. Loring Brace, Review of Species, Species Concepts, and Primate Evolution, edited by William H. Kimbel and Lawrence B. Martin, Plenum Press, 1993, səh.560, American Scientist, vol 82, September/October 1994, səh.484-486)

## Mutasiyalar təkamülçülərin iddialarını təkzib edir



Mutasiyalar canlıların genetik informasiyasını daşıyan DNT molekulunda radiasiya və ya kimyəvi amillər nəticəsində meydana gələn qırılma və yerdəyişmələrdir. Mutasiyalar DNT əlifbasını təşkil edən nuklein turşularını parçalayır və ya yerlərini dəyişdirirlər. Mutasiyaların 99%-i zərərlidir. Hüceyrənin təmir edə bilmədiyi ölçüdə zərər və dəyişikliklərə səbəb olurlar. 1% təsirsizdirlər.

Ona görə, təkamülçülərin iddia etdiyi kimi, mutasiyalar bir növün başqa növə çevrilməsinə səbəb olacaq müsbət dəyişikliklər meydana gətirməzlər. Mutasiyalar ancaq Xirosima, Naqasaki və Çernobıldakı insanlardakı kimi şikəstlik və ölümə səbəb olurlar. Çünki DNT çox kompleks nizama malik molekuldur. DNT-dəki hər hansı təsadüfi dəyişikliyin canlıya ancaq zərər verdiyini amerikalı genetik B.Q. Ranqanatan (B.G. Ranganathan) belə açıqlayır:

“Mutasiyalar kiçik, təsadüfi və zərərli dəyişikliklərdir. Çox nadir meydana gəlirlər və ən yaxşı ehtimalla təsirsizdirlər. Bu dörd xüsusiyyət mutasiyaların təkamül xarakterli dəyişiklik meydana gətirmədiyini göstərir. Onsuz da yüksək dərəcədə xüsusiləşmiş bir orqanizmdə meydana gələcək hər hansı dəyişiklik ya təsirsiz, ya da zərərli olar. Bir qol saatında meydana gələn təsadüfi dəyişiklik qol saatını təkmilləşdirməz. Ona böyük ehtimalla zərər verər və ya ən yaxşı ehtimalla təsirsiz olar. Zəlzələ bir şəhəri təkmilləşdirməz, onu məhv edər”. B. G. Ranganathan, Origins?, The Banner Of Truth Trust)

Bu günə qədər heç bir faydalı mutasiya müşahidə edilməyib. İnsanlarda müşahidə edilmiş bütün mutasiyalar zərərlidir.

Mutasiyaların nə üçün təkamülçülərin iddialarını dəstəkləmədiyini üç əsas maddə ilə xülasələmək olar:

1) Mutasiyalar həmişə zərərlidir.

2) Mutasiya nəticəsində DNT-yə yeni informasiya əlavə edilmir.

3) Mutasiyanın sonrakı nəslə ötürülməsi üçün mütləq çoxalma hüceyrələrində baş verməlidir. Orqanizmin hər hansı hüceyrəsində və ya orqanında meydana gələn dəyişiklik sonrakı nəslə ötürülmür. Məsələn, bir insanın gözü radiasiya və bənzər amillərlə mutasiyaya məruz qalıb orijinal formasından fərqlənə bilər, ancaq ondan sonrakı nəslə keçməz.

## Bəşəriyyət tarixinin ən böyük yalanı təkamül nəzəriyyəsidir

Yuxarıda izah edilən bütün məlumatlar elmi həqiqətlərdir. Təkamül sehrbazları bu həqiqətləri izah edərkən sətirlərin arasına “bütün bu amillər canlıların təkamül keçirməsinə səbəb olmuşdur” kimi heç bir elmi əsası olmayan əlavələr edir, insanları bu illüziya ilə aldatmağa çalışırlar. Ancaq hər kəs bilir ki, illüziya reallığın təhrif olunaraq beyinin aldadılmasıdır. Darvinizm 150 ildən artıqdır ki, bunu edir. Heç bir elmi dəlili olmayan təkamül nəzəriyyəsini insanlara elm kimi qəbul etdirməyə çalışır.

Ancaq XXI əsrdə bu illüziya sona çatacaq, insanlar həqiqətləri görməyə başlayacaq və zehinlərdəki bulanıqlıq aradan qalxacaq. Darvinist hipnoz sona çatıb. Allah`ın izni ilə, yaxın gələcəkdə bu nəzəriyyə sadəcə tarix kitablarında bəşəriyyət tarixinin ən böyük yalanı şəklində yer tutacaq.

“Təkamül nəzəriyyəsi” və ya “darvinizm” terminlərini eşidən insanların bir qismi bu məfhumların sadəcə bioloji termin olduğunu və onların həyatı üçün əhəmiyyət daşımadığını düşünə bilərlər. Halbuki, təkamül nəzəriyyəsi dünyada geniş kütləni təsiri altına almış batil ideologiyanın təməlini təşkil edir. Bu ideologiya nə üçün və necə var olduğumuz haqqında həqiqətdən kənar fikirlər irəli sürən materializmdir. Materializm, digər adı ilə maddəçilik maddədən başqa heç nəyin olmadığını iddia edir. Buna əsaslanaraq fövqəltəbii bir Yaradanın (Allah`ı tənzih edirik) - Allah`ın varlığını inkar edir.


www.tekamulsaxtakarliqlari.com
YARATILIŞ ATLASI
HARUN YAHYA
YARATILIŞ ATLASI
HARUN YAHYA
YARATILIŞ ATLASI 2
HARUN YAHYA
CİLT 4
YARATILIŞ ATLASI
HARUN YAHYA
(ADNAN OKTAR)
De: "Haqq gəldi, batil puç olub getdi.
Həqiqətən də batil puçluğa məhkumdur!"
(İsra surəsi,81)
SAXTA